# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Böyük Qayıdış: Kəngərliyə həyat qayıdıb!



3

№ 112 (7280)

SƏS

1 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

## Azərbaycan - etibarlı və mühüm tərəfdaş!



2

**Prezident İlham Əliyev İranın, Sudanın və Polşanın ölkəmizdə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib**

# Moskvanın Yekaterinburq faciəsi

**Rusiyanın dövlət qurumları baş verənlərə qanuni don geyindirməyə çalışırlar**




4

### İlham və Fərizə: bir sevgi hekayəsi



6

### Taksilərdə kondisioner məcburidir?




8

### Bu gündən Azərbaycanda qohum evlilikləri qadağan edilir...



16

**DİN: "Sputnik Azərbaycan"ın qanunsuz maliyyələşmə əsasında fəaliyyətini davam etdirməsi ilə bağlı araşdırma başlayıb**



5

### Yay gəldi, bəs istirahət imkanı varmı?



4

# Azərbaycan - etibarlı və mühüm tərəfdaş!

## Prezident İlham Əliyev İranın, Sudanın və Polşanın ölkəmizdə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 27-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.***

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti ilə dünən telefon danışığını və Məsud Pezeşkianın Azərbaycana səfəri zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bu səfərin bütövlükdə iki ölkə arasındakı münasibətlərin inkişafında yeni səhifə açdığını qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, Məsud Pezeşkianın ölkəmizə səfəri zamanı səsləndirdiyi bəyanatlar və fikirlər Azərbaycan ictimaiyyəti tərəfindən çox müsbət qəbul olunub.





Dövlətimizin başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın öz mövqeyini ifadə edən ilk ölkələrdən biri olduğunu deyərək, bu gərginliyi qınadığını vurğuladı və qarşıdurma zamanı həlak olan İran vətəndaşları ilə bağlı bir daha başsağlığını ifadə etdi. İranla İsrail arasında bu gərginliklə əlaqədar bəzi dairələrin və media təmsilçilərinin Azərbaycan-İran əlaqələrinə xələl gətirmək üçün şayiələr və yalanlara əsaslanan məlumatlar yaydığını deyən Prezident İlham Əliyev bütün bunların tamamilə cəfəngiyyat olduğunu bildirdi.

Müctəba Dəmirçilu İran İslam Respublikasının ali rəhbərliyinin də Azərbaycanla münasibətlərin inkişafına xüsusi diqqət göstərdiyini vurğuladı.

Səfir Azərbaycanla İran arasındakı münasibətlərin dostluğa, qonşuluğa və qardaşlığa əsaslandığını qeyd etdi. O, İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın prinsipial və qəti mövqeyinin İranda yüksək qiymətləndirildiyini vurğuladı və buna görə də təşəkkürlərini çatdırdı. Səfir qeyd etdi ki, İran tərəfi də tam əmindir ki, Azərbaycan ərazisindən İrana qarşı heç vaxt istifadə oluna bilməz, Azərbaycan dövləti buna heç zaman imkan verməz. Diplomat, həmçinin xarici və İran vətəndaşlarının ölkəmizə keçidi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanla İran arasında ikitərəfli siyasi, iqtisadi, ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı. Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində inşa olunan, Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi, ümumilikdə Araz nəqliyyat dəhlizinin inkişafı məsələləri müzakirə olundu.



Prezident İlham Əliyev iyunun 27-də Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Sudanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Birləşmiş Millətlər Təşkilatında (BMT), İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Qoşulmama Hərəkatında və digər beynəlxalq təşkilatlarda ölkələrimizin uğurlu əməkdaşlığını vurğuladı.

Prezident İlham Əliyev Sudanın Suveren Keçid Şurasının Sədri ilə Qoşulmama Hərəkatının Bakıda keçirilmiş Zirvə toplantısı və Antalya Diplomatiya Forumu çərçivəsində görüşlərini, ikitərəfli əlaqələrin inkişafına dair müzakirələri məmnunluqla xatırladı.



Səfir Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhana çatdırmağı xahiş etdi.

Səfir Azərbaycanın Sudanın ərazi bütövlüyünə, suverenliyinə və siyasi birliyinə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, iki ölkənin dövlət başçılarının tapşırıqlarına uyğun olaraq ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün Sudan tərəfindən işçi qrupunun yaradıldığını vurğuladı. Ənəs Eltayeb Elqaylani Mustafa sudanlı tələbələrə ölkəmiz tərəfindən təhsil təqaüdünün ayrılmasına görə minnətdarlığını bildirərək, bu təqaüdlərin artırılmasını xahiş etdi.

Prezident İlham Əliyev iyunun 27-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Polşa arasında bir çox istiqamətdə əməkdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğuladı, siyasi və iqtisadi sahədə əlaqələrimizin inkişafından məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Polşanın Avropa İttifaqının üzvü olduğunu deyərək, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı istiqamətində də ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin önəminə toxundu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ilə Avropa İttifaqı arasında yüksəksəviyyəli təmasların ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasına şərait yaratdığını qeyd etdi.

Səfir Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Andjey Dudaya çatdırmağı xahiş etdi. Pavel Radomski Bakının inkişafının şahidi olduğunu deyərək, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini bildirdi və orada aparılan genişmiqyaslı quruculuq işlərinin, həmçinin həmin ərazilərin təbiətinin onda dərin təəssürat hissi yaratdığını vurğuladı.

Söhbət zamanı münasibətlərimizin genişləndirilməsində iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın və parlamentlərarası əlaqələr üzrə işçi qrupların fəaliyyətinin əhəmiyyəti qeyd edildi. Görüşdə iqtisadi, ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Rumıniya mediası:

## Müasir dünya XX əsrin totalitar yanaşmaları və imperiya istəkləri ilə idarə oluna bilməz

***Rumıniyanın "Ultima Or?" onlayn xəbər portalı Azərbaycanın beynəlxalq münasibətlərdə haqlı mövqeyini və hazırkı qlobal çağırışlar fonunda regionun üzləşdiyi təhlükələri əhatə edən analitik məqalə yayımlayıb. "Dünyanı ötən əsrin Leninqrad qanunsuzluqları ilə idarə etmək olmaz" ("The world cannot be governed by the lawless rules of last century's Leningrad") sərlövhəli ingilis dilində dərc edilmiş yazı Rumıniya mətbuatında geniş rezonans doğurub və bir sıra digər informasiya resursları tərəfindən dərc olunub.***

Məqalədə beynəlxalq hüququn kobud şəkildə pozulması, böyük güclərin kiçik dövlətlərə təzyiqləri və xüsusilə Rusiyanın postsovet məkanında apardığı dağıdıcı siyasət kəskin tənqid olunur. Yazının əsas tezisi ondan ibarətdir ki, müasir dünya XX əsrin totalitar yanaşmaları və imperiya istəkləri ilə idarə oluna bilməz.

"Ultima Or?" yazır ki, Azərbaycan regionda sabitliyin təmin olunmasına çalışan əsas aktorlardan biri kimi sülh təşəbbüsləri ilə çıxış edir. Bununla belə, bəzi dairələr bu təşəbbüslərə qarşı çıxır, ölkənin daxili və xarici siyasətinə təzyiq göstərməyə çalışırlar: "Azərbaycan müstəqil dövlət kimi öz yolunu seçib. Onun Avropa və dünya ilə inteqrasiyası, enerji təhlükəsizliyinə verdiyi töhfə, sülh diplomatiyası bəzi böyük güclərin maraqları ilə üst-üstə düşmür", - deyə yazıda qeyd olunur.

Məqalədə Rusiyanın zamanzaman Azərbaycan və digər region ölkələrinə qarşı tutduğu qərəzli



Number of Azerbaijanis detained in Yekaterinburg reaches six

According to the Yekaterinburg cour[t] decision, Bakir Safarov, the sixth pers[on] charged in the case involving Azerbaijanis, has been ordered detained for 72 hours.

Local media reports that the state prosecutor declined to comment.

17:14

The Lenin District Court in Yekaterinburg has imposed a 3-day detention measure on Ahliman Ganjiyev, who was detained as a suspect.

Ganjiyev's lawyer informed journalists that his client is barely able to move. The defense is currently working to ensure justice is served.

mövqeyə də toxunulur. Müəllif bildirir ki, ötən əsrin "Leninqrad yanaşması" - yəni zor gücünə hegemonluq - artıq keçmişdə qalmalıdır və bu metodla dünya idarə oluna bilməz.

Sonda vurğulanır ki, beynəlxalq ictimaiyyət belə hallara biganə qalmamalı, qanun və ədalət əsasında hərəkət etməlidir. Azərbaycan isə bu prinsipial mövqeyi ilə nümunəvi davranış sərgiləyir.



Ultima oră
ziar național independent
Distincția culturală a Academiei Române
POLITICĂ EXTERNĂ
The world cannot be governed by the lawless "rules" of last century's Leningrad

# Böyük Qayıdış: Kəngərliyə həyat qayıdıb!

## *Kəndə 37 ailə - 153 nəfər köçürüldü*

Ötən əsrin son onilliyində baş verən ictimai-siyasi proseslər və torpaqlarımızın işğalı zamanı ermənilər təcavüzkar siyasət həyata keçirərək, insanlıq əleyhinə vəhşilik törətmiş oldular. Həmin illərdə torpaqlarımızın işğalı ilə yanaşı, mülki əhaliyə böyük ziyan vurulmuş, tarix-mədəniyyət abidələri, infrastrukturu dağırtmış, ağılasığmaz vəhşiliklərə imza atmışlar. 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Erməni barbarlığının nəticəsi olaraq, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilmişdir. Müharibədən sonrakı dövrdə torpaqlarımıza qayıdarkən erməni təcavüzkarlarının hansı işləri görməsi insanları dəhşətə gətirir. Milliyyətindən asılı olmarayaq, işğaldan azad olunmuş ərazilərimizə səfər edən istər rəsmi nümayəndələr olsun, istər KİV nümayəndələr olsun, istərsə də hər hansı təşkilatların nümayəndələr erməni vandallıqlarına laqeyd ola bilmirlər.



Bu gün artıq müharibədən qısa bir zaman keçmiş olsa da ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. Ermənilərin xarabalığa çevirdiyi məkanlar yenidən qurulur və əvvəlki zamanına qayıdır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Növbəti köç respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Ağdam rayonunun Kəngərli kəndinə yola salınıb. Bu mərhələdə Kəngərli kəndinə 37 ailə - 153 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 43 mindən çox insan yaşayır.



### KƏNGƏRLİ KƏNDİNDƏ 2626 NƏFƏR (639 AİLƏ) MƏSKUNLAŞACAQ

Qeyd edək ki, Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin də dövlət başçısı tərəfindən təməli qoyulmuşdu. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılıb. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır. Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində də 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

### MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN YAŞAYIŞ MƏHƏLLƏLƏRİ SALINIR

İşğaldan azad olunan ərazilərimiz sırasında olan Ağdam 27 ildən sonra günəş şüaları ilə nurlanmış bu şəhər yeni dövrünə qovuşub. 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Qeyd edək ki, rayon ərazisinin 88%-i 1993-cü il iyul ayının 23-də ermənilər tərəfindən işğal edilmişdir. Rayonun ərazisində qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri vardır. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdir. Rayonun onlarla tarixi yaşayış məskənləri Eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Bu maddi-mənəvi abidələr müxtəlif bölgü əsasında qruplaşdırılmış və hər biri tarixə əsaslanaraq, ”Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü” adlı kitaba daxil edilmişdir.

Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə ”yaşıl enerji” zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

### AĞDAM KEÇMİŞ ŞÖHRƏTİNİ YENİDƏN ÖZÜNƏ QAYTARACAQ




Qeyd edək ki, Azərbaycanda turizmin inkişafı istiqamətində mühüm işlər görülsə də, böyük turizm potensialına malik Qarabağ işğal altında olduğundan bu proseslərdən kənarda qalmışdı. İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan bu diyar Müzəffər Ali Baş Komandanın qətiyyəti və Ordumuzun rəşadəti sayəsində artıq düşmən tapdağından azad edilib. Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

Əlbəttə ki, Ağdamın turizm məkanlarından söz açarkən, Ağdam Çörək muzeyini xüsusi olaraq qeyd etməliyik. Azərbaycanın Ağdam şəhərində yaradılan Çörək muzeyi 25 noyabr 1983-cü ildə ilk ziyarətçilərini qəbul etmişdi. Muzeydə 2800-ə yaxın eksponat vardı. Qarabağ müharibəsində Ermənistan Silahlı Qüvvələrinin hücumları nəticəsində muzeyə iki dəfə mərmi düşmüşdü. İlk atılan mərmi üçüncü sərgi zalına düşsə də, partlamamışdı. Digər mərmi isə 1992-ci ilin avqust ayının 12-də Əsgəran rayonunun Xanabad və Naxçıvanik kəndi istiqamətindən atılan zaman muzeyə düşərək, muzeyi tamamilə məhv etmişdir. Nəticədə muzeydə olan 1500-dək eksponat yanaraq məhv olmuşdur.

Burada gündə 8-10 ton buğda üyütmək gücü olan mexaniki dəyirman yerləşirdi və 1930-cu illərində istifadə edilən ”Triyer” taxıl təmizləyici qurğusu sərgilənirdi. Muzeydə əmək alətləri - xış, vəl, çin, oraq, II əsrə aid əl dəyirmanı (kirkirə), ”çarçar” adlı taxıldöyən yer almışdı. Mənbələrdə qeyd olunur ki, muzeyin 2800-ə yaxın eksponatı arasında Ağdam ərazisindəki ”Çalağan təpədə” arxeoloji qazıntılar zamanı aşkar edilmiş və yaşı 3000 ildən artıq olan daşlaşmış buğda da olub. Undan hazırlanan məhsullar, o cümlədən, Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Ermənistan, Dağıstan, Səmərqənddə bişirilən çörək növləri muzeyə gələn ziyarətçilərdə böyük maraq yaradırdı. Müxtəlif taxıl növləri, buğdadan hazırlanmış eksponatlar, müharibə dövründə uşaqlara verilən çörək kartoçkaları, eləcə də, buğda dənələrindən düzəldilmiş Azərbaycan xəritəsi və muzeyin eksponatları sırasında rəngarəngliyi ilə seçilib. Maraq doğuran məqamlardan bir də muzeyin divarlarında əks olunmuş atalar sözləri olub. ”Çörək baha olanda ölüm ucuz olar”, ”Qılınc kəsməyəni çörək kəsər” atalar sözləri də çörəyin müqəddəsliyini, gücünü, qüdrətini bir daha ziyarətçilərə xatırladım. Müqəddəs olan kəlamlar bu muzeyin dəyərini daha da artırmışdı.

Onu da vurğulamaq yerinə düşər ki, 1980-cı illərdə Ağdamda keçirilən ”Natəvan” qızlar bayramı, ”Xarı Bülbül” beynəlxalq festivalı məhz muzeyə baxışla başlanarmış.

Hər daşı bir tarix olan Ağdam şəhəri öz keçmiş imicini yenidən özünə qaytaracaq və Azərbaycanın turizm bölgəsi kimi Ağdamın da bu sırada öz yeri və payı olacaqdır.

### AĞDAM BAŞ PLANINA UYĞUN OLARAQ QURULUR

Yenidən qurulan Ağdamda Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksi istifadəyə verilib. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Azərbaycanın işğaldan azad edilən ərazilərində elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması, enerji təhlükəsizliyinin təmin olunması və yaradılacaq infrastrukturların elektrik enerjisi ilə təchizatı üçün Ağdam şəhərinin Baş Planına uyğun olaraq, şəhər ərazisində 35/0,4 kilovoltluq iki transformator məntəqəsi inşa edilib. Bu məntəqələr güc mərkəzləri olaraq, ilk mərhələdə ətrafda salınacaq yeni yaşayış sahələrini elektrik enerjisi ilə təmin edəcək. Baş Planda həmin transformator məntəqələrinin digər yaşayış sahələri üçün inşa ediləcək güc mərkəzləri ilə əlaqələndirilməsi və dairəvi elektrik təchizatı sxeminin yaradılması nəzərdə tutulub. Eyni zamanda, şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 2-də təməli qoyulan bu Regional Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.

İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji mənbələrinin (Günəş və külək enerji qurğuları) tətbiqinə dair model yaradılıb. Bu modelin həm işçi heyətin, həm də gələcəkdə aktiv istehlakçıların maarifləndirilməsi təlimlərində istifadəsi nəzərdə tutulub. Eyni zamanda, elektroenergetika sahəsində qazanılmış tarixi nailiyyətləri əks etdirən elektron guşə və əyani vəsait stendləri, müasir uçot cihazları (SMS, Smart, NFC sayğacları), təhlükəsizlik texnikası və idarəetmə plakatları nümayiş olunur. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunur.

***Zümrüd BAYRAMOVA***

# Moskvanın Yekaterinburq faciəsi

*Rusiyanın dövlət qurumları baş verənlərə qanuni don geyindirməyə çalışırlar*

***Rusiyanın Yekaterinburq şəhərində baş verən hadisələr gündəmdə ən çox müzakirə olunan mövzular sırasındadır. Rosqvardiyanın törətdiyi vəhşiliklər barədə danılmaz faktlar qarşısında Rusiya hakimiyyətinin çıxılmaz duruma düşəcəyini düşünənlər çox yanıldılar. Moskva adətinə uyğun olaraq hadisədə yenə də hakimiyyət nümayəndələrini yox, qanunsuz olaraq evinə soxulduğu, öldürdüyü, həbs etdiyi insanları haqsız çıxarmağa cəhd edir. Rusiya mətbuatı da qaynar qazana dönüb, az qala azərbaycanlıları və onları həmişə doğma Vətən kimi dəstəkləyən Azərbaycanı günahkar çıxarmağa çalışır.***




## Bakı cəza tələb edir

Rusiyanın güc strukturları tərəfindən aparılan axtarışlar və həbslər nəticəsində Azərbaycan vətəndaşları həlak olub, bir neçə nəfər ağır yaralanıb, 9 nəfər həbs edilib. 28 iyun 2025-ci il tarixində Azərbaycanın Xarici İşlər Nazirliyi bir gün əvvəl Rusiyanın Yekaterinburq şəhərində baş vermiş hadisələrlə bağlı rəsmi məlumat yayıb. Sənəddə Rusiya FSB-nin iyunun 27-də səhər saatlarında azərbaycanlıların məskunlaşdıqları yerlərdə keçirdiyi hərbi əməliyyatdan ciddi narahatlıq ifadə edilir.



Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya tərəfini hadisəni dərhal araşdırmağa və günahkarları məsuliyyətə cəlb etməyə çağırıb. İlkin məlumata görə, FSB-nin əməliyyatı köhnə işlə - 25 il əvvəl Səfərovlar ailəsinə məxsus "Kaspiy" restoranının yaxınlığında baş vermiş Azərbaycan vətəndaşı Yunis Paşayevin qətli ilə bağlıdır. Reydlər zamanı KİV-in məlumatına görə, bu ailənin azı 2 üzvü - Hüseyn, Ziyəddin həlak olub, Ayaz, Məzahir və Kamal Səfərov isə müxtəlif dərəcəli, əsasən ağır bədən xəsarətləri alıblar. Şahidlərlə birlikdə təxminən 50 nəfər saxlanılıb. Mərhumun yaxınlarından bəziləri işgəncə ola biləcəyini iddia edir. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev mayın 9-na həsr olunmuş tədbirlərdə iştirak üçün Moskvaya uçmaqdan imtina etmişdi.

Rusiya mənbələrinin qənaəti, yaxud üzürü günahından böyük

İyunun 27-də Yekaterinburqda "2001, 2010 və 2011-ci illərdə törədilmiş qətllərin istintaqı çərçivəsində" Azərbaycan diasporunun nümayəndələri saxlanılıb. Azərbaycan Xarici İşlər Nazirliyi zorakılıqlara görə məsuliyyət daşıyanların cəzalandırılmasını tələb edərək, itkilər barədə məlumat yayıb. Məlumata görə, ölənlər Hüseyn və Ziyəddin Səfərov qardaşlarıdır. Amma Rusiya tərəfi onların ürəyində problem olduğu barədə yalan məlumat yaymaqda davam edir.



Rusiya Xarici İşlər Nazirliyi həbslərin ağır cinayətlərin araşdırılması ilə bağlı olduğunu bəyan edib, müvəqqəti işlər vəkili Petr Volokov isə vəziyyətin nəzarət altında olduğuna əmin olub. İyunun 29-da Azərbaycan Mədəniyyət Nazirliyi Rusiya ilə bütün birgə mədəni tədbirləri ləğv edib, Azərbaycan nümayəndə heyəti isə "məqsədli qətllər və zorakılıq" səbəbindən parlamentlərarası komissiyanın iclasında iştirakdan imtina edib.

Bazar günü, iyunun 29-da Sverdlovsk vilayəti məhkəmələrinin birgə mətbuat xidməti bildirib ki, Yekaterinburq şəhərinin Leninski Rayon Məhkəməsi Məzahir, Akif və Ayaz Səfərovları iyulun 19-dək həbs edib, onlar Rusiya Federasiyası Cinayət Məcəlləsinin 105-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham olunurlar. Cinayət Məcəlləsinin eyni maddəsi ilə təqsirləndirilən Əhliman Gənciyev, Şahin Lalayev və Bəkir Səfərovun barəsində məhkəmənin qərarı ilə həbs müddəti 72 saat uzadılıb - zəruri sənədlərin toplanması üçün tərəflərə əlavə vaxt verilib. Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğunun nümayəndələri saxlanılanlara dəstək olmaq üçün dinləmələrə gəliblər. Məhkəmənin mühafizəsi xüsusi təyinatlılar tərəfindən gücləndirilib.

Azərbaycan vətəndaşlarının həbsi cümə günü, iyunun 27-də Yekaterinburqda həyata keçirilib.

*Ardı Səh. 5*



Elçin Bayramlı

# Yay gəldi, bəs istirahət imkanı varmı?

***Dünyanın bütün sivil ölkələrində insanlar yay tətilində həm öz ölkələrində, həm də xarici ölkələrə səyahət edə bilir, yarım ay, bir ay müddətində istirahət edirlər. Bundan başqa, hər həftəsonu şəhərkənarı təbiət guşələrində qısa müddətli "piknik" adlandırılan istirahət formasından yararlanırlar.***

Azərbaycanda bu sahədə bir sıra problemlər var. Əhalinin təminatlı hissəsi öz istirahətlərini həm ölkəmizin gözəl təbiət guşələrində, həm də xarici ölkələrdə keçirirlər. Lakin aztəminatlı hissə bu imkanlardan məhrumdur. Çünki, xarici ölkələr bir yana qalsın, ölkəmizin daxilindəki turizm müəssisələrinin qiymətləri çox yüksəkdir. Bu səbəbdən də sadə bir ailənin belə mərkəzlərdə bircə həftəlik istirahəti üçün belə maliyyə imkanı yoxdur. Bunun üçün ailə başçısı bir neçə aylıq maaşınından keçməlidir.

Sovet dövründə həmkarlar təşkilatları bütün işçilərə növbə ilə putyovkalar təşkil edirdilər və onlar da ölkənin müxtəlif sanatoriyalarında istirahət edir, hətta müalicə alırdılar. Bu gün həmkarlar təşkilatı formal olaraq mövcuddur və belə putyovka almaq mində bir adama nəsib olur.

Belə bir halda yalnız yaxın ərazierdə qısamüddətli istirahət, yəni "piknik" haqda düşünmək olar. Çox təəssüf ki, Bakı ətrafı ərazilərdə təbiət (meşə, çay, göl) olmadığından, şəhərdən 100 km-ə qədər radiusda ərazilər səhralıq olduğundan Bakı sakinləri bu imkandan da məhrumdurlar. Dəniz kənarında yerləşən Bakı bağlarında 1 günlük ev kirayə edib istirahət etmək istəsəniz bir neçə yüz manatınızdan keçməli olacaqsınız. Bu da aztəminatlı təbəqə üçün əlçatan deyil.

Bu halda isə ümid qalır lap balaca istirahətə- yəni şəhər daxilində bir neçə saatlıq "piknik"ə. Bu imkan da ancaq çimərliklərdən və şəhərkənarı bəzi parklardan ibarətdir. Çimərliklərdə qiymətlər o qədər də ucuz deyil və 1 ailənin pullu çimərliyə gedib istirahət etməsi azı 50-100 manata başa gələcək. Pulsuz cəmi bir neçə çimərlik var ki, onlarda da adam əlindən tərpənmək olmur, heç dənizə girməyə belə yer qalmır.

Yaşıllıq sahələri və parklara gəldikdə Bakı və ətrafında bir neçə belə məkan var. İnsanlar evdən bəzi qida məhsulları götürərək orada istirahət edə bilirlər. Lakin bu da pulsuz başa gəlmir. Orada olan bəzi xidmətlərdən istifadə etməli olursan, dayanacaq haqqı ödəyirsən, uşaq bir neçə karusələ minir, sərin bir içki içmək istəyəndə 3 qatına almalı olursan. Adi parklarda atraksionların qiyməti 2 manatdan başlayır. Əvvəllər 1 manat idi, qiymətin niyə 2 dəfə artmasının izahı hələ də tapılmayıb.

Bakı Zooparkı şəhərimizdə ən yaxşı təbiət güşəsidir. Burada da getdikcə bilet qiymətlərini artırırlar. Təsəvvür edin ki, əvvələr 1-2 manat olan biletin qiyməti indi böyüklər üçün 7 manat, uşaqlar üçün isə 2 manatdır. Uşağın təkbaşına gedə bilməyəcəyini nəzərə alsaq, 1 uşağın Zooparka baxması üçün bilet haqqı 9 manata başa gəlir. Üstəlik, Zooparkın daxilindəki satış nöqtələrində su, şirniyyat və sair məhsullar 3 qat qiymətə satılır. Daxildəki kafedə oturub yemək yemək isə çox baha başa gəlir. Yəni, 50 manatla qurtara bilmirsən.

Mərdəkanda Dendrapark var, amma ora da gedib gəlmək və bir iki xırda xuruş almaq (çay, su, şirniyyat və s) elə 50 manatdan çox pul tələb edir.

Bəziləri dəniz sahilində balıq tutmaqla istirahət etmiş olur. Qalanları isə şənbə-bazar günlərini yaxınlıqdakı çayxanada və həyətdə qonşularla söhbətləşmədə, ya da evdə oturub kinoya filana baxmaqla keçirir. Bizdə kütləvi piknik mədəniyyəti hələ də formalaşmayıb. Çünki nə müvafiq imkanlar var, nə sadə insanlar üçün sərfəlidir.

Mədəni ölkələrdə çox sayda pulsuz belə yerlər təşkil olunur və insanlar həftə sonlarını təbiət qoynunda keçirirlər. Bizdə isə harda təbiət adlı bir yer var, dərhal özəlləşdirilir və yüksək qiymətlərlə xidmət göstərir. Belə bir vəziyyətdə istirahət edə bilməyən insanlarda aqerssivlik artır, stress və yorğunluq halı yüksəlir, iş qabiliyyəti azalır.

Bir çox yerlərdə meşələr, çay və göl kənarları, dəniz sahili müxtəlif şəxslər və müəssisələr tərəfindən tutulub və çəpərlənib. İnsanların vaxtilə pulsuz istirahət etdiyi təbiət guşələrinə girişi məhdudlaşdırılıb. Ölkənin təbii sərvətləri (meşə, gözəl, çay, dəniz, çöl və s) qanunla bütün vətəndaşların birgə mülkiyyətidir və kimsə haranısa zəbt edib vətəndaşları ora buraxmaya bilməz.

Bu məsələlərlə bağlı müvafiq orqanlar tərəfindən ciddi bir iş aparılmalı, qanunun tələbi yerinə yetirilməli və vətəndaşların öz vətənlərinin təbii sərvətlərindən istifadəsinə yaradılan süni maneələr aradan qaldırılmalıdır.




# Moskvanın Yekaterinburq faciəsi

*Rusiyanın dövlət qurumları baş verənlərə qanuni don geyindirməyə çalışırlar*



Əvvəli Səh. 4

Yerli KİV-in məlumatına görə, ümumilikdə, təhlükəsizlik qüvvələri əlliyə yaxın adamı saxlasa da, onların əksəriyyəti dindirildikdən sonra sərbəst buraxılıb. Azərbaycan Xarici İşlər Nazirliyi 9 nəfərin həbsdə qaldığını bildirib. Regional mənbələr dindirilənlər arasında yerli Azərbaycan diasporunun lideri, BMT-nin "Azərbaycan-Ural" təşkilatının sədri Şahin Şıxlinskinin də olduğunu bildirib.

Təhlükəsizlik qüvvələrinin fəaliyyəti Rusiya Federasiyası İstintaq Komitəsinin regional idarəsi tərəfindən aparılan cinayət axtarışı çərçivəsində həyata keçirilib. "Rusiya Federasiyası İstintaq Komitəsinin Sverdlovsk vilayəti üzrə xüsusilə mühüm işlərin (keçmiş illərin cinayətləri üzrə) araşdırılması üzrə dördüncü şöbəsi Rusiya Federasiyası Cinayət Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinin "g", "z" bəndlərində, habelə Rusiya Federasiyası Cinayət Məcəlləsinin 3-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş cinayətlər əsasında cinayət işini araşdırır. Rusiya Federasiyası Cinayət Məcəlləsinin 105-ci maddəsi (bir qrup şəxs tərəfindən qabaqcadan sui-qəsdlə törədilmiş adam öldürmə; muzdlu adam öldürmə; muzdlu adam öldürməyə cəhd). İstintaqın məlumatına görə, etnik cinayətkar qrupun tərkibində olan təqsirləndirilən şəxslər 2001, 2010 və 2011-ci illərdə Yekaterinburq şəhərində törədilmiş bir sıra qətllər və qəsdən adam öldürməyə cəhddə iştirak ediblər", - deyə idarədən bildirilib.

Rusiya mənbələrinə görə, sözügedən "etnik mütəşəkkil cinayətkar qrup 1990-cı illərin sonlarından regionda reketlik və narkotik vasitələrin qanunsuz dövriyyəsindən tutmuş fahişəliyin təşkilinə qədər müxtəlif qeyri-qanuni fəaliyyətlərlə, 2021-ci ildə isə saxta spirtli içkilərin tədarükü ilə məşğul olub və nəticədə 40-a yaxın Yekaterinburq sakini həlak olub. Eyni zamanda xərac verməkdən boyun qaçıran inadkar sahibkarlarla da mübarizə aparılıb. Belə ki, 2001-ci il mayın 11-də "Taqanski Ryad" bazar kompleksində paltar satan iş adamı Yunus Paşayev öldürülüb. İstintaqın məlumatına görə, qatillər onu "Metallon" kafesinin yaxınlığında mühasirəyə alaraq bıçaqlayaraq öldürüblər. Həmin vaxt prokurorluq cinayət işi açsa da, qatilləri tapa bilməyiblər. 2010-cu ilin mayında iş adamı Fexruz Şirinovun həyatına qəsd edilib. İstintaqın məlumatına görə, Elman Süleymanov adlı şəxs onu vurmaq istəyib, lakin tüfəngdən atəş açılmayıb və Şirinov özü oğlu ilə birlikdə cinayətkarı saxlayıb. Süleymanov həm istintaqda, həm də məhkəmədə ifadə verməkdən imtina edib. Təhlükəsizlik qüvvələrinin məlumatına görə, o, susduğuna görə qrup rəhbərlərindən vasitəçi vasitəsilə mükafat istəyib. Cavab olaraq vasitəçini qəbiristanlığa aparıblar və ayaqlarını sındıraraq prosesi videoya çəkiblər (qurban bir müddət sonra əlil olub və dünyasını dəyişib). Nəhayət, 2011-ci il avqustun 8-də iri tərəvəz anbarının sahibi İkram Hacıyevin evinə muzdlu qatillər gəlib. Qatil iş adamının başına atəş açanda o, silahı təcavüzkarın əlindən qoparıb, papağını və qoruyucu eynəklərini qoparıb çıxara bilib. Dörd gündən sonra zərərçəkmiş aldığı yaradan xəstəxanada dünyasını dəyişib".

## Əks reaksiya

Təhlükəsizlik qüvvələrinin Yekaterinburqda keçirdiyi əməliyyat rəsmi Bakının kəskin reaksiyasına səbəb olub. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında həbslər zamanı ölən və yaralananlardan bəhs edilir. "Biz gözləyirik ki, Rusiya bu iş üzrə təcili araşdırma aparacaq və bu yolverilməz zorakılıqda günahkar olanları tez bir zamanda məsuliyyətə cəlb edəcək", - deyə qeyd edilib. Rusiya ilə bağlı bir sıra tədbirlər ləğv edilib.

Rusiyanın E1.ru portalının məlumatına görə, aparılan istintaq-əməliyyat tədbirləri zamanı "Kaspiy" kafesinin sahibləri olduğu ehtimal edilən Hüseyn və Ziyəddin Səfərov qardaşları "dünyasını dəyişib". Həbs edilən təqsirləndirilən şəxslərin vəkili İlkin Əmirov 66.ru-ya bildirib ki, ölümün səbəbləri ilə bağlı hələlik məlumat verilmir. "Kommersant"ın mənbələrinə görə, hüquq-mühafizə orqanları infarktdan danışır. Öz növbəsində Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Yekaterinburqda həbslər Rusiya vətəndaşı olan Azərbaycandan olan şəxslərə aiddir və "ağır cinayətlər" faktı üzrə cinayət işlərinin istintaqı çərçivəsində həyata keçirilib. İyunun 28-də Azərbaycan Xarici İşlər Nazirliyinə dəvət olunmuş Rusiyanın müvəqqəti işlər vəkili Petr Volokov Azərbaycan tərəfinə lazımi izahat verib və vəziyyətin hüquq-mühafizə orqanlarının nəzarətində olduğunu əmin edib.

## Putin başa düşürmü ki, 1937-ci il deyil, 2025-ci ildir?

İyunun 29-da Yekaterinburqun Leninski Rayon Məhkəməsi bir gün əvvəl saxlanılan azərbaycanlıların saxlanması ilə bağlı qərarlar çıxarıb. Bu səs-küylü hadisə ilə bağlı daha əvvəl məlumat yayılıb. Şübhəlilərin mənzillərinə basqın zamanı polisin necə davranması hələ də çoxlu suallar doğurur. Məsələ bundadır ki, onlardan ikisi ölüb, bir neçəsi isə ciddi bədən xəsarətləri alıblar. Necə baxırsan, rəhmətlik Səfərov qardaşları (Ziəddin və Hüseyn) sadəcə şübhəli olublar, başqa heç nə. Onların günahı məhkəmə tərəfindən müəyyən edilməli idi. İndi, görünür, bu, artıq olmayacaq. Təhlükəsizlik qüvvələrinin kütləvi aksiyaları zamanı saxlanılan 50 azərbaycanlının əksəriyyəti artıq sərbəst buraxılıb. Lakin doqquz nəfər həbsdə qalıb.

Məhkəmənin qəbul etdiyi həbs müddəti maraqlıdır. Əgər adətən müxtəlif cinayətlərdə təqsirləndirilən şəxslər barəsində məhkəmələr dərhal 2-3 aylıq həbs qərarı çıxarırsa, bu halda hər şey başqa cür olur. Saxlanılanlardan üçü indiyədək 22 sutka həbs olunub. Bunlar Məzahir, Akif və Ayaz Səfərovlardır. Daha üç nəfərlə bağlı son dərəcə nadir qərar çıxarılıb - saxlanılan şəxslər Əhliman Gənciyev, Şahin Lalayev və Bəkir Səfərovun həbs müddəti 72 saat uzadılıb. Daha sonra onlar üçün profilaktik tədbir seçiləcək.

Görünür, gərgin siyasi vəziyyət öz təsirini göstərir. İyunun 27-də Yekaterinburqda baş verən zorakılıq aksiyasından sonra Rusiya və Azərbaycan hakimiyyəti arasında münasibətlər son dərəcə gərginləşib.Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan parlamentinin nümayəndə heyətinin üzvləri Moskvada keçirilən tədbirlərdə iştirak etməmək qərarına gəliblər. Bundan başqa, Azərbaycan Rusiya incəsənət xadimlərinin və təşkilatlarının iştirakı ilə keçirilən bir sıra mədəni tədbirləri qəfil ləğv edib. Bunlara konsertlər, teatr tamaşaları və rus komediya ustalarının tamaşaları daxildir. Üstəlik, bu, sadəcə ləğv faktı deyil. Azərbaycanın Mədəniyyət Nazirliyindən rəsmi açıqlama verilib: "Rusiyanın dövlət və özəl qurumlarının Azərbaycanda planlaşdırdığı bütün tədbirlər ləğv edilib". Ləğv edilən tədbirlər arasında Leonid Aqutin və Anjelika Varumun konsertləri, Bastanın "Şelkunçik", "Düyməcik", "Ustad və Marqarita" tamaşaları var.

## Peskov: Rusiya Azərbaycanla yaxşı münasibətlərdə maraqlıdır

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycanın Rusiya Federasiyası ilə bağlı mədəniyyət tədbirlərini ləğv etməsi ilə bağlı məlumatı şərh edib. "Biz bu cür qərarlardan ürəkdən təəssüflənirik. Azərbaycan tərəfinin fikrincə, bu cür demarşlara səbəb olmuş hadisələrin səbəblərini və mahiyyətini izah etmək üçün işi davam etdirmək vacibdir", - o deyib. Onun sözlərinə görə, hüquq-mühafizə orqanlarının işi ilə bağlı heç bir şey belə reaksiyaya səbəb ola bilməz və olmamalıdır. "Biz Azərbaycanla yaxşı münasibətləri daha da inkişaf etdirməkdə maraqlıyıq", - Peskov qeyd edib. O, həmçinin əlavə edib ki, Rusiya prezidenti Vladimir Putinin gündəliyində Azərbaycan prezidenti İlham Əliyevlə söhbət yoxdur, baxmayaraq ki, lazım gələrsə, qısa müddətdə belə bir söhbət təşkil oluna bilər.

İyunun 28-də Azərbaycan Rusiyanı Yekaterinburqda azərbaycanlıların saxlanmasını araşdırmağa çağırıb. Bu bəyanat mediada iyunun 27-də baş vermiş reyd barədə məlumat yayıldıqdan sonra verilib - təhlükəsizlik qüvvələri azərbaycanlıların 10-dan çox mənzilində axtarış aparıb və 50-yə yaxın adamı saxlayıb. Regional İstintaq Komitəsi və Daxili İşlər Nazirliyi "əvvəlki illərdən" işi araşdırdıqlarını bildiriblər.

Azərbaycan diasporunun nümayəndəsi, "Azərbaycan-Ural" təşkilatının sədr müavini Şıxlinski Mütvəli Şahin oğlu fövqəladə vəziyyətlə bağlı belə şərh verib: "Mərhumun yaxınlarından və saxlanılan şəxslərdən məlumat aldıq. Buna uyğun olaraq biz də öz tərəfimizdən bu barədə aidiyyəti qurumlara məlumat verilməsi üçün lazımi addımlar atdıq". Onun sözlərinə görə, saxlanılanların yaxınları hesab edirlər ki, onların ittiham olunduğu cinayətlərdə iştirakları yoxdur. Hələlik diaspor nümayəndəsinin bildiyi budur. Rəsmi olaraq Rusiya tərəfi bildirir ki, 27 iyun hadisələri ilə bağlı istintaq Rusiya vətəndaşlarına qarşı aparılır. Rusiya Federasiyası İstintaq Komitəsinin Sverdlovsk vilayəti üzrə Xüsusi mühüm işlərin (keçmiş illərin cinayətləri üzrə) araşdırılması üzrə 4-cü şöbəsi bir qrup şəxs tərəfindən qabaqcadan əlbir olaraq törədilmiş qətlə görə Rusiya Federasiyası Cinayət Məcəlləsinin maddələri ilə cinayət işlərini araşdırır.

**V.VƏLİYEV**

## DİN: "Sputnik Azərbaycan"ın qanunsuz maliyyələşmə əsasında fəaliyyətini davam etdirməsi ilə bağlı araşdırma başlayıb




2025-ci ilin fevralında "Rossiya Seqodnya" İnformasiya Agentliyinin Bakı filialının ("Sputnik Azərbaycan") akkreditasiyası dayandırılsa da, qanunsuz maliyyələşmə əsasında fəaliyyətini davam etdirməsinə dair daxil olmuş əməliyyat məlumatı əsasında Daxili İşlər Nazirliyi (DİN) araşdırmalara başlayıb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyunun 30-da filialın ofisində əməliyyat-axtarış tədbirləri keçirilib, saxlanılanlar var.

# İlham və Fərizə: bir sevgi hekayəsi

***Həyat sevgilərlə, bəzən bu sevgilərdən yaranan sevinc və kədərlərlə doludur. Sevgibu müqəddəs hiss kimini xoşbəxt, kimini bədbəxt edir, kimi onu bir ömür doyunca yaşayır, kimi isə sevgi adlı yolçuluqda nakam bir yolçuya çevrilir. Bu yolda görünən yalnız xatirələr və xəyallar olur.***

1990-cı ilin 20 Yanvar faciəsi də minlərlə vətəndaşımızı nakam bir yolun yolçusuna çevirdi. O insanları ki, onlar ən ülvi sevgilərdən olan azadlığa qovuşmaq üçün neçə günlər idi ki, bir yola çıxmışdılar. Bu yolda onları nələrin gözləməsindən isə xəbərsiz idilər. Heç ağıllarına da gəlmirdi əslində qarşıda onları gözləyənlər.

***

1990-cı ildə 70 il idi ki, əldə etdiyimiz müstəqilliyimizi zorla əlimizdən alıb bizi əsarət zəncirlərinə bənd etmişdilər. 70 il idi ki, sovet imperiyasının qurub-yaratdığı "böyük vətənin" bir parçasına çevrilmişdik. Bu 70 ildə nə planlar hazırlanmışdı. Hazırca da saxlanırdı ki, 15 müttəfiqdən biri başını qaldıran kimi bu planlar işə düşsün. Çünki imperiyanı qorumaq üçün yalnız güclərdən istifadə olunmalı idi. Qırğınlar törədilməli, ölkələrə hərbi texnikalar göndərilməli, nəyin bahasına olursa-olsun, onların başlarının qalxmasına imkan verilməməli idi.

Azərbaycan isə tarixin müxtəlif dönəmlərində azad yaşamaq üçün mübarizəyə qalxmış, azad olmaq istəmiş, bunu çətinliklə əldə etsə də, əlindən alınmış, azadlığı qan rənginə boyanmışdı. Elə həmin rəng də nə vaxtsa xalqın bu hislərinin yenidən alovlanmasına səbəb olacaqdı...

***

Yanvarın 19-dan 20-nə keçən gecə artıq aylar idi ki, azərbaycanlılar azadlıq hislərinin yenə də illər öncəki kimi alovlanması səbəbi ilə meydanlara çıxır, azadlıq mücadiləsinə qoşulurdular. Həmin gün isə bu mübarizənin qarşısını almaq üçün çoxdan bəri hazırlanan plan həyata keçirilməli idi. İmperiyanın qaniçən ordusu Bakıya girməli və azadlıq sözünü dilinə gətirən insanları susdurub getməli idi.

Planlaşdırılan kimi də oldu. Azadlıq meydanında minlərlə insanın üstünə tanklar, texnikalar yürüdüldü. Yaşlı, uşaq, gənc, qoca, qadın, kişi deyilmədi, bütün meydan, ətraf güllə yağışına tutuldu. Həmin gecə nə həyatlar susdu, nə arzular yarımçıq qaldı. Azadlıq meydanının azadlıq fədailəri bir gecənin qurbanına çevrildilər...

***

Onlar arasında faciədən 35 il keçməsinə baxmayaraq sinəmizi hələ də göynədən, ailələrinin təməli cəmi altı ay öncə qoyulmuş İlham və Fərizə adlı gənclərimiz də vardı. Xeyr, Fərizə o meydanda deyildi. O meydandakı İlhamın, bəli, 6 ay öncə ailə qurduğu İlhamın qəlbində idi.

İlham o gecə Azadlıq meydanına dostları ilə getmişdi. Lakin qəlbində Fərizəni də aparmışdı. Seçib sevdiyi, ailə həyatı qurduğu, bir ömür bir yerdə yaşlanmağa söz verdiyi Fərizəni. Fərizə ona "getmə" demişdi. Lakin azadlıq eşqi də Fərizəyə olan sevgisi qədər ülvi olan İlham bu yoldan qala bilməmişdi. "Gedirəm, amma tez gələcəyəm, narahat olmayın",- deyərək, arxasınca narahatlıqla baxan ana-bacısına, sevgilisinə söz vermişdi. Lakin söz verməklə deyil. O dəhşətli gecədən kim sağ-salamat çıxacağına söz verə bilərdi ki... Bu söz sadəcə bir təsəlli idi. Arxada narahat keçirənlərə verilən bir ümid və təsəlli.



O gecə evlərdən bayıra çıxardıqlarını ölümə aparırdı. Bu ölüm yolçuluğunda yalnız təsadüf nəticəsində sağ qalmaq mümkün olardı. Bu mümkünlər isə mümkünsüzlərin içərisində idi. Onları qurtaran yalnız bir alın yazısı, tale payı ola bilərdi...

***

Fərizənin həmin gecə gözlərinə yuxu gedə bilərdimi? Əsla. Sanki ürəyinə dammışdı İlhamın geri qayıtmayacağı. Deyirlər axı, candan sevəndə olacaqlar sənə agah olur. Fərizə də İlham evdən çıxarkən ona agah olan bir hisslə anasına "qoyma, ana, İlhamı getməyə qoyma",- demişdi. Lakin İlhamı saxlamaq olardımı? Biz axı İlham kimi minlərlə oğullarımızı görmüşük. Vətən sevdalı, torpaq məhəbbətli oğullarımızı. Onları nədən, haradan saxlasan da, Vətən, torpaq adı olan yerdən əsla saxlamaq mümkün deyil.

Azadlıq meydanına toplaşanlar da Vətənimiz üçün, onun azadlığı, müstəqilliyi, asılılıqdan qurtuluş yolu, azad yaşaması üçün toplaşmışdılar. İlhamı Vətənin azadlığına gedən bu yoldan kim saxlaya bilərdi. Buna kimin gücü çatardı...

İlham addımlayırdı... Qəlbində sevgilərlə addımlayırdı. Vətən üçün ölümə doğru addımladığını bilməsə də, irəliyə doğru dostları, tanıdıqları ilə birgə addımlayırdı. Onların hər birinin də qəlbində Vətəndən savayı sevgilər vardı: yar sevgisi, ata sevgisi, ana sevgisi, övlad sevgisi... Və yaşamaq sevgisi...



Lakin o gecə qətlə yetirilən yüzlərlə insanın ürəyində minlərlə belə sevgilər nöqtələndi. Tək Vətən sevgisindən başqa. Çünki həmin an Vətən sevgisi bütün sevgiləri üstələmişdi. Ölümün bir addımlığında belə heç kim, heç bir qüvvə onu nöqtələyə bilməzdi. Elə buna görə də Vətən oğulları canlarından keçdilər, lakin Vətən üçün iradələrindən dönmədilər. Şəhid oldular, yaralandılar, qazi oldular, "Vətən sağ olsun",- dedilər, bir addım da geri çəkilmədilər...

***

O gecə İlhamın da həyatına son nöqtəni qoydu. Lakin hələ evdəkilər bundan xəbərsiz idi. Fərizə çox narahatlıq keçirirdi. Səhərədək evdə o yana-bu yana var-gəl etmişdi. Saatlar ötür, lakin İlham qayıtmırdı. Ağlına, ürəyinə gələn başına gəlmişdi. Dünyalar qədər sevdiyi həyat yoldaşı şəhid olmuşdu. Xəbərsizdi. Xəbərsizdi ki, gecə İlham nə qədər qan itirib, şam işığında əməliyyata alınıb, həkimlər nə qədər narlaşdırır, onların ürəyinə, ağlına yaxınlaşmasına imkan vermirdi.

O qara xəbər isə qapının ağzındaca dayanmışdı. An axtarırdı ki, içəriyə girib Fərizənin dünyasını qana boyasın, alt-üst etsin bu evdə. Cəmi 2-3 gün əvvəl İlhamla köçdükləri bu yeni evdə. Min bir xəyal qurduqları, bütün otaqları artıq xəyallarındakı istəklərlə doldurduqları, pərdələrini asdıqları, çilçıraqlarını yandırdıqları bu evə an qərib idi ki, bu acı xəbər girsin. Fərizənin həyatını darmadağın etsin...

***

Al qan içində olan İlhamı xəstəxanadan birbaşa evə gətirə bilmirlər. Çünki bunu görənlərin ürəyi elə o andaca partlaya bilərdi. Qardaşı onu məscidə aparıb yudurdur, sonra gətirir evlərinə.

Axşamdan bəri sükuta dalan Fərizə 20 Yanvar "hədiyyəsini" alır o səhər. O hədiyyə Fərizənin gəncliyini alır, ona vaxtsız bir qocalıq bəxş edir. Xəyallarını, arzularını, istəklərini alır, yerinə bütün sualları, istəkləri sükutla qarşılamaq kimi bir durğunluq verir. Bir andaca dünyası başına yıxılan Fərizə artıq heç nə düşünmür. Sadəcə İlhamın yanında olmaqdan başqa heç nə...

Fərizəni aldığı qərardan heç kim döndərə bilmir. Evdə onun cəhd göstərsələr də onu xilas edə bilməyib. Xəbərsizdi, hamı kimi, İlhamın ata-anası, bacıları, qardaşı kimi o da xəbərsizdi o qanlı gecənin sevdiyi insana nələr etdiyindən.

Səhər açılacaqmı? Fərizə tək bunu düşünürdü. Bu qara gecəni hansısa bir gün işığı aydınladacaqmı? "İlahi, açılsın səhər, bəlkə İlhamdan bir xəbər gətirər yeni səhər",- deyirdi, vurnuxurdu. Lakin saatlar bir-birini əvəz edir, saatın əqrəbləri öz dəyişməz ahəngi ilə eyni işi görməsi ilə artıq Fərizənin səbrini tükəndirirdi. O, İlhama nə isə olduğunu artıq gün kimi aydın görürdü. Lakin bu fikirləri dərhal özündən kənar qərarını hərəkətlərindən hiss edirlər, ona fikrindən vaz keçmək üçün yalvarırlar. Lakin Fərizə sanki kar olmuşdu. İlhamı bir daha görə bilməyəcək gözləri kor olmuşdu. Onu içindən gələn bir səs-2 aylıq körpəsinin səsi də yolundan qaytara bilməyəcəkdi.

Fərizə öz ailəsini İlhamın yanına daşıyırdı. Bətnindəki körpəsi ilə İlhama doğru yolçuluğa çıxırdı. O, yalnız sevdiyinin yanında xoşbəxt ola bilərdi. Bətnindəki körpə yalnız İlhamın yanında doğula, dünyaya gələ bilərdi. İlhamsız Fərizə də, körpəsi də tənha, yetim idi. Bu səbəbdən İlhamın yanında olmaqdan başqa çarə görə bilmədi Fərizə. Özünə də, körpəsinə də qıydı. Düşmənin qıydığı İlhama çatmaq, onun yanında olmaq üçün...

***

Elə həmin günlər İlham və Fərizə adlı bir dastan yarandı. Bir sevgi hekayəsi dastana çevrildi. Bu dastan indiyədək oxuduğumuz, tanış olduğumuz dastanlardan çox fərqli bir dastandır. Çünki burada Vətən sevgisi bütün sevgilərdən yüksəkdə dayanır. İlhamın Vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qatılması, bu yolda mücadilə edərək şəhid olması və sevgilisi-həyat yoldaşı Fərizənin İlhamın yoxluğunda özünün var olmasını heç cür görə bilməməsi bu dastanı bütün dastanlardan fərqli edir. İndiyədək oxuduğumuz bütün dastanlardan...

30 iyun 1989-cu ildə qurulan bir azərbaycanlı ailəsi 6 ay sonra belə bir sonluqla nöqtələnir. İlham Vətən uğrunda, Fərizə İlham uğrunda, bətnindəki körpə isə həyatın amansızlığı uğrunda şəhid olurlar. İndi Şəhidlər xiyabanında 2 qəbirdə 3 can uyuyur: bir ailənin 3 üzvü. İlham, Fərizə, bir də Vətən. Bəli, Vətən qoyuram onların övladlarının adını. Çünki Vətən uğrunda mübarizənin övladıdır o. Çünki Vətən yolunda ölümün gözünün içinə dik baxan, gəncliyindən, həyatından keçən atanın övladıdır. Vətənin Vətən adlı övladıdır.

Fərizə isə Azərbaycan qadınının ümumiləşmiş obrazıdır. Şəhid anası, şəhid yoldaşı obrazıdır. Oğlu şəhid olmuş qarayaylıq, saçları ağappaq olan analarımızın, əri şəhid olmuş, saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb övlad böyüdən qadınlarımızın obrazıdır. Nişanlısı, sevgilisi Qarabağ müharibələrində, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən savaşlarda şəhid olan, qəlblərinə ömürlük bir düyün vurulan qızlarımızın obrazıdır. Bütün oxuduğumuz dastanlardakı qadın obrazlarından fərqli bir obrazdır. Elə bunun üçün də 30 iyun Azərbaycanda Sevgililər günüdür. Qoy bütün ailələrimiz beləcə, Vətən sevgisi ilə qurulsun. Biz var olduqca Vətənimizi şəhidlərimiz, qazilərimiz kimi qoruyaq. Onların hər biri gənc nəsillərə nümunədir. Gənclərimizin onlardan əxz etməli çox məqamlar var.

***Mətanət Məmmədova***

# Dünyaya nümunəvi tolerantlıq örnəyi

***Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan uğurlu bir model təqdim edir.***

Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: "Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir". Çağdaş dünyamızın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Dünyanın diqqətində olan ölkəmizdə - Azərbaycanda isə nümunəvi dövlət-din münasibətləri uğurla həyata keçirilir və tolerant mühit hökm sürür. Əlbəttə ki, mövcud vəziyyət, dövlət siyasəti bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib.

## AZƏRBAYCAN CƏMİYYƏTİNİ SƏCİYYƏLƏNDİRƏN ƏNƏNƏ

Dini dözümlülük, tolerantlıq kimi dəyərlər Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əsas Ana Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımızın əmin-aman şəraitdə yaşaması, birlik, həmrəylik nümayiş etdirməsi şübhəsiz ki, əsrlərin sığından çıxan dəyərlərdən qaynaqlanır. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib.



## TOLERANT MÜHİT - BƏRABƏRLİYİN, DEMOKRATİYANIN, SOSİAL RİFAHIN VƏ ƏDALƏTİN BƏRQƏRARI

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Təbii ki, tolerant mühitin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, ədalətin bərqərari deməkdir.

Dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olan Azərbaycanda xristian icması əsrlər boyunca tariximizin formalaşmasında iştirak edib. Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. "Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin həmrəyliyinə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik",

## BÜTÜN XALQLARIN TARİXİ BİRLİYİ VƏ QARDAŞLIĞI

Çətin, ağır, eləcə də xoş günlərdə də bütün xalqların nümayəndələri bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdumaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

## "MUSİQİ ATLASI" LAYİHƏSİ

Azərbaycanda yaşayan milli azlıqlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, udilərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Axıska türklərinin Vətən Cəmiyyəti və s. nümunə göstərmək olar. Təsadüfi deyil ki, azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi "Musiqi Atlası" layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir.

Bütün xalqların dini-mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki kilsələr, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi və s misal göstərmək olar.

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqların, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları çox təqdirəlayiqdir. Azərbaycanda yaşayan yəhudilər də hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsi kimi xarakterizə olunur. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində böyük uğurlara nail olub. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirir.

"Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir", - deyə Prezident bildirib.

Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdəki mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədi ilə maliyyə yardımları ayrılır. Prezidentin qeyd olunan sərəncamları Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu, Bakı şəhəri Dağ yəhudiləri dini icması, Avropa yəhudilərinin Bakı dini icması, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna və s. şamil olunur.

Dünyada xalqlar arasında etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təsis edilməsi və xalqımızın tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədilə Azərbaycanda 2011-ci ildən başlayaraq Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilir. Ötən illər ərzində bu forum qloballaşan dünyamızı narahat edən ən mühüm məsələlərə dair fikir mübadiləsi aparmaq üçün beynəlxalq platformaya çevrilib. Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirildi. Azərbaycanın əldə etdiyi uğurlar, həyata keçirilən inkişaf siyasəti öz növbəsində ölkəmizin beynəlxalq nüfuzunun artmasına, qlobal əhəmiyyətli tədbirlərin keçirildiyi məkana çevrilməsinə səbəb olub. Bakı Beynəlxalq Humanitar Forumu göstərir ki, Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi, həmçinin, humanitar məsələlərin müzakirə olunduğu məkandır.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Taksilərdə kondisioner məcburidir?

***İsti yay günlərində taksi ilə gedərkən kondisionerin işləməsi sərnişin üçün sadəcə rahatlıq deyil, bəzən hətta zərurətə çevrilir. Amma görəsən, bu sistemin işlək olması rəsmi olaraq məcburidirmi? Bu sual həm Azərbaycanda, həm də digər ölkələrdə aktualdır. Gəlin, bu mövzuya geniş və anlaşıqlı şəkildə baxaq.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Azərbaycanda vəziyyət necədir?

Son illərdə Azərbaycanda taksilərlə bağlı qaydalar xeyli sərtləşdirilib. Əsas məqsəd sərnişinlərə daha keyfiyyətli və təhlükəsiz xidmət göstərməkdir. Məhz bu səbəbdən 2024-cü ildə Nazirlər Kabinetinin verdiyi qərara əsasən, bütün taksilər kondisioner sistemi ilə təchiz olunmalıdır. Qanun açıq şəkildə bildirir ki, nəqliyyat vasitəsində həm isitmə, həm də soyutma funksiyalı tam havalandırma sistemi olmalıdır. Yəni, bir sözlə, taksidə kondisionerin olması sadəcə "əlavə rahatlıq" deyil, qanuni tələblərdən biridir. Bundan başqa, bəzi sürücülər kondisioneri işlətmək üçün əlavə pul tələb etsə də, bu qanunsuzdur. Sərnişin soyutma sistemindən istifadə etdiyinə görə əlavə ödəniş etməməlidir.



Hətta rəsmi qurumlar da bu cür hallarda şikayət etməyi tövsiyə edir.

## Digər ölkələrdə necədir?

Azərbaycandakı kimi, dünyanın bir çox ölkəsində də bu məsələ ciddi şəkildə tənzimlənir. Gəlin, bəzi ölkələrə qısaca nəzər salaq:

**Çin (Şanxay)** - Burada yay aylarında kondisionerin işləməsi məcburidir. Əgər sərnişin kondisioner istəyərsə, sürücü onu işə



salmalıdır. Əks halda, sərnişin taksi haqqını ödəməkdən imtina edə bilər.

**ABŞ (Nyu-York)** - Nyu-Yorkda maydan sentyabra qədər kondisionerin işləməsi şərtdir. Hətta bu, rəsmi şəhər qaydalarında da öz əksini tapıb.

**Malta** - Taksi nəqliyyatına dair yeni qaydalara əsasən, kondisioner sistemi işlək vəziyyətdə olmalıdır. Bu olmadan xidmət göstərmək olmaz.

**Qırğızıstan** - Qonşu ölkədə də kondisioner taksilər üçün standart tələblərdən biri hesab olunur.

**Braziliya** (Uber və digər platformalar) - Burada Uber kimi platformalar kondisionerin işlək olmasını şərt qoyur. Sürücü kondisioneri açmaqdan imtina etsə, sərnişin onu şikayət edə bilər.






## Nəticə olaraq nə deyə bilərik?

Kondisioner sisteminin işləməsi artıq bir çox ölkədə, o cümlədən Azərbaycanda qanunla tənzimlənən vacib bir məsələdir. Taksilər sərnişinləri nəinki təhlükəsiz, eyni zamanda rahat şəkildə daşımalıdır. Bu da yalnız kondisioner, havalandırma, təhlükəsizlik kəmərləri və digər zəruri sistemlərlə mümkündür. Əgər siz taksiyə oturursunuz və kondisioner işləmir, yaxud sürücü onu açmaqdan imtina edir, bu zaman siz bununla bağlı şikayət edə bilərsiniz. Hətta istəsəniz, aidiyyəti qurumlara bildirərək sürücünün məsuliyyətə cəlb olunmasına da nail ola bilərsiniz.

Sərnişin kondisioner istəyərkən sürücünün imtina etməsi düzgündürmü? Qısa ca-



vab: xeyr, düzgün deyil. Amma gəlin məsələni daha geniş və axarlı şəkildə izah edək ki, həm sərnişin, həm də sürücü öz hüquq və vəzifələrini yaxşı başa düşsün.

## Niyə bu məsələ vacibdir?

İsti havada avtomobilin içində kondisionersiz oturmaq bəzən əziyyətə çevrilir. Xüsusilə yaşlı insanlar, uşaqlar və səhhətində problem olanlar üçün bu, hətta sağlamlıq üçün təhlükə yarada bilər. Belə olan halda sərnişinin kondisioner tələb etməsi tamamilə haqlı və təbii bir istəkdir.

## Azərbaycanda bu məsələ necə tənzimlənir?

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən:

Rəsmi taksi fəaliyyəti göstərən avtomobillər mütləq havalandırma və kondisioner sistemi ilə təchiz olunmalıdır.

2024-cü ildə Nazirlər Kabinetinin qərarına əsasən, sərnişindaşıma fəaliyyəti göstərən nəqliyyat vasitələrində həm isitmə, həm də sərinlətmə (yəni kondisioner) sistemi məcburidir.

Əlavə olaraq, sürücü kondisionerə görə sərnişindən əlavə ödəniş tələb edə bilməz və kondisioneri işlətməkdən imtina edə bilməz. Yəni, bu tələblər qanuni sənədlərlə təsdiqlənmişdir və sürücü bu qaydalara əməl etməlidir.

Sürücü kondisioneri açmaqdan imtina etsə.

Əgər sürücü sərnişin istədiyi halda kondisioneri açmaqdan imtina edirsə:

**1.** Qanunu pozmuş olur.

**2.** Sərnişin istəsə, bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA), Daxili İşlər Nazirliyinə və ya 125 çağrı mərkəzinə şikayət edə bilər.



**3.** Hətta bəzi hallarda belə sürücülər inzibati cərimə və ya fəaliyyət icazəsinin ləğvi ilə üzləşə bilər.

## Digər ölkələrdə bu vəziyyət necədir?

Bu qayda təkcə Azərbaycanda yox, bir çox ölkədə oxşar şəkildə tətbiq olunur:

**Çin (Şanxay):** Taksi sürücüsü sərnişin istədiyi halda kondisioneri açmaq məcburiyyətindədir. Açmasa, sərnişin ödəniş etmədən düşə bilər və sürücü cərimələnir.

**ABŞ (Nyu-York):** Yay aylarında kondisioner işləməlidir - bu, şəhər qaydasıdır.

**Braziliya (Uber və s.):** Kondisionerin işləməsi xidmət standartlarına daxildir. Sürücü bunu etməsə, müştəri şikayət edə və sürücü sistemdən çıxarıla bilər.

Bu ölkələrdə sərnişin komfortu qanunla qorunur və sürücünün "istəmirəm" deməyə hüququ yoxdur.



## Bəs bəzən sürücülərin səbəbi nə olur?

Bəzi sürücülər bu tələbi yerinə yetirməyəndə müxtəlif bəhanələr gətirirlər: "Kondisioner yanacağı çox aparır", "Maşında kondisioner işləmirsə, təmirə pulum yoxdur", "Sərinlik bəs eləyir, pəncərəni aç". Bunlar sərnişinə aid deyil. Əgər sürücü taksi xidməti göstərirsə, maşını bütün texniki tələblərə cavab verməlidir. Bunun içində kondisioner də var. Sərnişin maşının nasazlığına görə əziyyət çəkməməlidir.

## Nəticə: Sürücü kondisioneri açmaqdan imtina edə bilərmi?

Xeyr, edə bilməz. Əgər avtomobil rəsmi taksidirsə, kondisionerin işlək vəziyyətdə olması qanuni tələbdir və sərnişin istədiyi zaman sürücü onu açmağa məcburdur. Bu, sadəcə etik məsələ deyil, həm də hüquqi öhdəlikdir.

## Tövsiyə

Əgər belə bir halla rastlaşırsınızsa:

Sürücü ilə sakit və nəzakətli şəkildə danışın.

Əgər yenə imtina edirsə, taksi nömrəsini və vaxtı qeyd edin.

AYNA və ya digər qurumlara şikayət edin. Bu həm sizin hüququnuzu qoruyar, həm də xidmət keyfiyyətinin yüksəlməsinə töhfə verər.

**Nəqliyyat eksperti Yasin Mustafayev:** "Müasir dövrdə ictimai nəqliyyatın keyfiyyətli və rahat şəkildə təşkili hər bir inkişaf etmiş cəmiyyətin prioritet məsələlərindən biridir. Nəqliyyat vasitələrinin texniki vəziyyəti, onların təhlükəsizlik göstəriciləri, sərnişinlər üçün yaradılmış şərait bu sahədə əsas meyarlar sayılır. Bu baxımdan, sərnişin daşıyan bütün nəqliyyat vasitələrində isitmə və soyutma sistemlərinin mövcudluğu və işlək vəziyyətdə olması artıq sadəcə texniki tələbat deyil, eyni zamanda insan hüquqlarına və rifahına birbaşa təsir edən vacib amildir. Təəssüf ki, bəzən nəqliyyat vasitəsində bu sistemlərin mövcud olmasına baxmayaraq, onlar ya ümumiyyətlə işləmir, ya da qəsdən işə salınmır. Məsələn, yay aylarında temperaturun yüksək olduğu



vaxtlarda kondisionerin işlədilməməsi, qışda isə salonun lazımi qədər isidilməməsi sərnişinlərə narahatlıq yaradır, onların səfər təcrübəsini mənfi təsirləyir. Bu cür hallar yalnız komfortla məhdudlaşmır, müəyyən temperatur şəraitində uzun müddət qapalı məkanda qalmaq xüsusilə yaşlı insanlar, uşaqlar və sağlamlıq problemi olan şəxslər




üçün təhlükə mənbəyi də ola bilər. Əksər hallarda sürücülər və ya daşıma şirkətləri kondisioner və isitmə sistemlərindən istifadədən yayınmağa çalışırlar. Bunun əsas səbəbi kimi həmin sistemlərin əlavə yanacaq sərfiyyatına səbəb olması göstərilir. Doğrudur, texniki baxımdan bu sistemlər təxminən 10-15% əlavə yanacaq sərf edir. Lakin bu, sərnişinin rifahını arxa plana atmaq üçün yetərli səbəb ola bilməz. Bir neçə faiz yanacağa qənaət etmək naminə insanların sağlamlığı və rahatlığı qurban verilə bilməz. Burada məsələ sadəcə iqtisadi qənaət deyil, söhbət sərnişin məmnunluğu, sosial məsuliyyət və xidmət keyfiyyəti kimi anlayışlardan gedir. Əgər ictimai nəqliyyat vasitəsi istismara buraxılıbsa, deməli, o, bütün funksiyaları ilə işlək vəziyyətdə olmalıdır. Bu, sürücünün şəxsi seçim məsələsi deyil, bu, qanunla və xidmət standartları ilə tənzimlənən bir tələbdir. Xüsusilə də yay aylarında 35-40 dərəcəlik isti şəraitdə kondisionersiz avtobusda səfər etmək sərnişinlər üçün bir əzaba çevrilir.

Digər tərəfdən, bu məsələ təkcə sərnişin rahatlığı ilə də məhdudlaşmır, həm də ictimai nəqliyyatda keyfiyyət standartlarının qorunması, daşıma mədəniyyətinin formalaşması və dövlət nəzarət mexanizmlərinin işlək olması ilə bağlıdır. Nəqliyyat vasitələrinin texniki baxışdan keçməsi zamanı bu sistemlərin işlək vəziyyəti ciddi şəkildə yoxlanmalı və normaya cavab verməyən vasitələrin istismara buraxılmasına qəti şəkildə yol verilməməlidir. Sonda qeyd etmək lazımdır ki, ictimai nəqliyyat yalnız bir yerdən başqa yerə hərəkəti təmin edən vasitə deyil, eyni zamanda cəmiyyətin gündəlik ritminin, şəhər mədəniyyətinin və xidmət mədəniyyətinin bir parçasıdır. Bu sistemin keyfiyyətli işləməsi insanlara göstərilən qayğının göstəricisidir. İsitmə və soyutma sistemləri isə bu qayğının ən sadə, amma ən vacib hissəsidir. Onların işləməsi lüks deyil, zəruri tələbatdır və bu tələbatın təmin olunması həm sürücünün, həm şirkətin, həm də nəzarət orqanlarının birbaşa məsuliyyətidir".

***Söylü Ağazadə***

# "Milli mətbuat o dövrdən bu günə qədər xalqımızın maariflənməsində mühüm rol oynayıb"

"Bildiyiniz kimi, bu il Azərbaycan milli mətbuatının 150 illik yubileyi qeyd olunacaq. Bu əlamətdar tarix yalnız mətbuat tariximizin deyil, həm də milli maarifçilik və ictimai fikir tariximizin mühüm mərhələsidir. 1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü ilə nəşr edilən "Əkinçi" qəzeti ilə əsasları qoyulan Azərbaycan milli mətbuatı o dövrdən bu günə qədər






xalqımızın maariflənməsində, ictimai şüurun formalaşmasında, milli-mənəvi dəyərlərin qorunmasında və dövlətçilik ideyalarının yayılmasında mühüm rol oynayıb". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Jalə Əliyeva deyib.

Onun sözlərinə görə, Azərbaycan mətbuatı uzun və şərəfli bir yol keçərək müxtəlif tarixi dövrlərin çətin sınaqlarından çıxmış, zaman-zaman senzura və təzyiqlərlə üzləşsə də, öz prinsipial mövqeyini qorumağa çalışmışdır. Müstəqillik əldə etdikdən sonra isə ölkəmizdə söz və fikir azadlığının təmin olunması üçün hüquqi və institusional əsaslar formalaşdırılıb. Bu baxımdan, Azərbaycan dövləti tərəfindən mətbuatın inkişafına göstərilən diqqət və qayğı xüsusi qeyd olunmalıdır: "Dövlətimiz jurnalistikanın inkişafı, müstəqil mediаnın təşviqi və jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, azad mətbuat cəmiyyətin inkişafı üçün vacib şərtlərdən biridir.

Bu məqsədlə son illərdə bir sıra mühüm qərarlar qəbul olunub. Mətbuat nümayəndələrinin mənzil şəraitinin yaxşılaşdırılması, KİV-ə maliyyə dəstəyi, Medianın İnkişafı Agentliyinin yaradılması və jurnalistlərin peşəkarlığının artırılması istiqamətində həyata keçirilən layihələr bu siyasətin real təzahürüdür.

Əlavə olaraq qeyd edilməlidir ki, Azərbaycan mətbuatı bu gün təkcə ölkə daxilində deyil, həm də beynəlxalq mediada baş verən proseslərə çevik reaksiya verən, qlobal informasiya mübarizəsində aktiv iştirak edən bir aktora çevrilib. Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, Vətən müharibəsində informasiya cəbhəsində qazanılan uğurlarda da jurnalistlərimizin əvəzsiz xidmətləri olub.

Bu da dövlətin mətbuata yaratdığı imkanların səmərəli şəkildə istifadə olunduğunun göstəricisidir. Yubiley ərəfəsində keçirilən tədbirlər, təşkil olunan konfranslar və təltif edilən media nümayəndələri də bir daha göstərir ki, dövlət mətbuata sadəcə informasiya vasitəsi kimi deyil, həm də ictimai şüurun və milli ideologiyanın formalaşmasında mühüm rol oynayan strateji institut kimi baxır. Bu yanaşma gələcəkdə də mətbuatın inkişafı üçün sağlam əsasların mövcudluğuna zəmanət verir. Milli mətbuatımızın 150 illik yubileyi yalnız keçmişə baxış deyil, eyni zamanda gələcəyə dair bir baxış, jurnalistikanın ictimai məsuliyyətini bir daha dərk etmək və yeni mərhələyə daha güclü addım qoymaq üçün bir fürsətdir. Dövlətin bu sahəyə göstərdiyi davamlı dəstək və diqqət isə milli mətbuatın gələcəyinə olan inamın ifadəsidir".

***Ziya Hikmətoğlu***

# Kilsənin terror yuvası olduğu təsdiqləndi

## Paşinyan Eçmiədzin kilsəsindəki terrorçuları zərərsizləşdirməklə ermənilərin alnına vurulan "terrorçu toplum" damğasını təmizləməyə cəhd edir




Mövcud reallıq ondan ibarətdir ki, erməni toplumu Azərbaycan ərazilərinə köçürülüb, burada möhkəmlənməsindən sonra azərbaycanlılara qarşı amansız soyqırımlar həyata keçiriblər. Bu vəhşiliklərin başında isə çox zaman erməni kilsəsi dayanıb. Erməni kilsəsi müxtəlif xarici dini mərkəzlərdən təlimatlar və hərbi, maliyyə yardımları almaqla onları ağıllı olmayan bədbəxt erməni toplumuna ötürüblər. Nəticədə azərbaycanlılar hədəfə alınıb, öldürülüb, evləri talan olunub, yandırılıb, tarixi abidələri, min ilik yaşı olan memarlıq nümunələri yer üzündən silinib. 1895-1913-cü illərdə Rusiyanın Türkiyədəki konsulu və diplomatı olan general Vladimir Mayevski kilsələrin fəaliyyəti barədə qeyd etmişdir: ”Erməni dini liderlərinin dini fəaliyyəti yoxa bərabərdir. Onlar ibadətdənsə, özləri ilə bağlı fikirlərin yayılması sahəsində daha böyük işlər görməklə məşğuldurlar”.

Birinci və ikinci Qarabağ müharibələri zamanı erməni kilsəsinin qaniçən terror yolu tutmasını qeyd etməklə bu dini mərkəzin əslində terror yuvası olduğunu bir daha təsdiqlənmiş olar. Ermənilərin dini lideri hesab olunan II Qaregin döyüşlərdə qan tökmək, mülki əhalini öldürmək, azərbaycanlıları girov götürərkən onlara rəhm etməmək haqında erməni terrorçu dəstələrinə çağırışlar edirdi. Hətta elə erməni kilsə nümayəndələri vardı ki, onlar əllərinə silah alıb, döyüşə gedirdilər. Lakin təlimatlarla döyüşə qatılsalar da, daxilən qorxaq və cəsarətsiz olduqlarından elə ilk döyüş meydanında qüdrətli Azərbaycan əsgərinə təslim olurdular. Təslim olduqlarından sonra II Qareginin nəsli - nəcabatına qədər söyüb, təhqir etməkdən, Paşinyana qarşı sərt ittihamlar irəli sürməkdən çəkinməmişlər. Ermənistanın Gümrü şəhəri Adventist kilsəsinin pastoru Hovsep Saakyan Araratoviç döyüş meydanında Azərbaycan əsgərinin qabağına qaçıb, təslim olduqdan sonra bir sıra maraqlı açıqlamalarla, etiraflarla çıxış etmişdir. Hovsep Saakyan Araratoviç döyüşə qatılmaqla böyük səhvə, yanlışlığa yol verdiyini bəyan edib, daha sonra II Qareginin göstərişi ilə müharibəyə gösnərildiyini bildirimişdir: ”Məni məcburən ön cəbhəyə yollayıblar. Mən çox şadam ki, Allah mənə fürsət verdi ki, mən bu yerdə danışım, müraciət edim. Bildirim ki, mən ilk öncə Ermənistanın Allahverdi rayonunda, daha sonra isə Gümrü şəhərində fəaliyyətə başlamışam”.



### Kilsədə terrorçular yetişdirilir

Hovsep Saakyan Araratoviç erməni hiyləgərliyinə uyğun şəkildə özünü terror yuvası olan kilsənin əsgəri kimi deyil imanlı, dindar insan kimi göstərməyə çalışırdı. O, yazıq forma alıb, demişdir: ”Mənə hərbi komissarlıqdan zəng edib dedilər ki, sən hərbi komissarlığa gəlməlisən. Mən hərbi komissarlığa gedəndə dedim ki, mən pastoram imanlı insanam və mən əlimə silah götürüb heç kəsi öldürməyəcəm. Lakin mənə dedilər ki, bunun heç bir əhəmiyyəti yoxdur, sən ön cəbhəyə getməlisən. Mən ön cəbhəyə getdim, Qubadlıda oldum. Heç bir saat keçməmiş orada mərmilər partlamağa başladı. Mən ayağımdan yaralandım. Məni hospitala köçürmək istəyirdilər. Yolda yenə də mərmi partlayışına düşdüm. Yanımdakı hər kəs həlak oldu, bir tək mən sağ qaldım. Allah mənim həyatımı qoruyub saxladı, yenii bir imkan, fürsət verdi. Əgər ikinci imkanım olsaydı, müharibəyə deyil, arxa cəbhədə hospitala gedib, yaralı insanlara kömək edərdim. İstəyirəm xalqıma deyim ki, sülhdə yaşasınlar, qan tökməsinlər”.

Təbii ki, Hovsep Saakyan Araratoviçin dilə gətirdiyi xalqlar arasında sülhün əldə edilməsi mümkünsüzdür. Çünki erməni kilsəsi regionda sülhün və təhlükəsizliyin yaranmasına qarşıdır. Onlar regionda qarşıdurmaların baş verməsini, insanların öldürülməsini istəyirlər.

### Paşinyan ikinci Qarageni məhv etməyə hazırlaşır

Diqqətçəkən məqam ondan ibarətdir ki, erməni kilsəsini regionda gərginlik ocağının yaradılmasına təhrik edən xarici qüvvələr arasında əsas sifarişçi Rusiyadakı hakim rejim hesab edilir. Xüsusilə də Kremilin qaranlıq dairələri Paşinyan hakimiyyətinin reallıqdan çıxış edərək Azərbaycan və Türkiyəyə yaxınlaşmasını həzm edə bilmirlər. Ona görə də, Eçmiədzindəki əlalıtıları vasitəsi ilə hakimiyyətə təzyiq göstərməyə çalışırlar. 2024-cü ildə keşiş Baqrat Qalstanyan vasitəsi ilə Paşinyanı hakimiyyətdən salmağa çalışan Rusiya indi də ikinci Qaragen vasitəsi ilə ölkəni qarışdırmağa çalışır. Lakin görünən ondan ibarətdir ki, Paşinyan Rusiyanın oyun qaydalarını pozmağa çalışır. Ona görə də, kilsədə kök salan terrorçuları zərərsizləşdirməyə cəhdlər göstərir. Bununla həm rəqiblərini sıradan çıxartmağa, həm də ermənilərin alnına vurulan ”terrorçu toplum” damğasını aradan qaldırmağa ümid edir. Artıq Paşinyan kilsə daxilində Rusiyaya bağlı olan terrorçuları həbs etməyə başlayıb. Ermənistanda hakimiyyətin silahlı yolla ələ keçirilməsinə cəhd işi ilə bağlı 15 nəfər, o cümlədən ”Müqəddəs mübarizə” hərəkatının başçısı arxiyepiskop Baqrat Qalstanyan, eləcə də qatı millətçi ”Daşnaksütyun” terror təşkilatının rəhbərliyində təmsil olunan şəxslər həbs edilib. Eyni zamnda Ermənistanın Apostol Kilsəsinin Şirak Yeparxiyasının rəhbəri, arxiyepiskop Mikael Acapaxyan İrəvan Birinci İnstansiya Məhkəməsinin qərarı ilə həbs edilib. Məlumata görə, Acapaxyan iki aylıq müddətə həbs edilib, müdafiə tərəfi məhkəmənin qərarından apellyasiya şikayəti vermək niyyətindədir. İlkin məlumata görə, arxiyepiskop Nubaraşen cəzaçəkmə müəssisəsinə aparılacaq.

Paşinyan əsas rəqibi olan ikinci Qaragenin sıradan çıxartmaq üçün onun haqqında əsaslı məlumatlar səsləndirib. Bu barədə baş nazir Nikol Paşinyan Facebook səhifəsində yazıb. Paşinyan qeyd edib ki, ikinci Qaragen evlidir və onun iki övladı var. Paşinyana görə, ikinci Qaragenin ailə qurması kilsə qanunlarına ziddir: ”Düşünürəm ki, Ktriç məhkəməyə yazılı vəsatət verərək, qə-



timkan tədbiri seçilərkən nəzərə alınsın ki, Ktriç kimi ”müqəddəs” bir ay arvadsız (qadınsız) yaşaya bilməz. Bundan əlavə, ərizə şəxssiz də ola bilər,yəni başqa ”müqəddəslər” üçün də istifadə oluna bilər, kiminsə qadınsız, kiminsə kişisiz bir ay yaşaya bilməyəcəyi də vurğulana bilər. Ya da bəzən qadınsız, bəzən kişisiz. Mövsümdən asılı olaraq”.

Bir sözlə görünən ondan ibarətdir ki, Ermənistanda hakimiyyətlə kilsə arasında qarşıdurma gərgin xarakter alıb. Paşinyanın əlində təsir və təzyiq, eləcə də həbsetmə imkanları olduğundan kilsə məğlubiyyətə uğrayacağı gözləniləndir. Lakin Paşinyanın qalib gəlməsi uzun çəkə bilər. Çünki ikinci Qaragenin arxasında Rusiya kimi qəddar və geniş imkanlara malik qüvvə dayanır. Həmin qüvvə kilsəyə hər cür dəstək göstərməklə Paşinyanı çıxılmaz duruma sala bilər. Hətta proseslərə əlavə terror dəstələrini cəlb etməklə Ermənistanda yeni iğtişaşlar, qarşıdurmalar törətməyə nail olar. Ona görə də, hakimiyyətlə-kilsə arasında savaş hələ uzun çəkəcək.

### Tarixən erməni kilsəsi terroru həyata keçirən mərkəzlərdən olub

Birmənalı şəkildə demək olar ki, erməni kilsəsinin hər bir üzvü potensial terrorçudur və ya terror etməyə meyillidir. Elə hallar olub ki, erməni kilsə nümayəndələri əyinlərinə keşiş paltarı geyinib, Osmanlıların və Azərbaycanın müxtəlif iri şəhərlərdə terror aktları törədiblər, yüzlərlə insanın ölümünü həyata keçiriblər. Hələ 17-ci və 18-ci əsrlərdə onların dini mərkəzi olan Eçmiədzin kilsəsinin əsas işi bölgədə pozucu rol oynamaq olub. Erməni katolikosları vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədiblər. Bəzi hallarda xarici qüvvələr hesabəna İrəvana, Zəngəzura və digər Azərbaycan ərazilərini hücumlar təşkil ediblər. 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsi problemi yaranmışdır. Yalnız Osmanlı imperiyasının yardımından sonra erməni kilsəsi geri çəkilmiş və kənar qüvvələr iddialarından imtina etmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır.

### Kilsənin xəyanəti bağışlanmadı

Erməni kilsəsinin xəyanət yolu tutmasını görən o dövrün böyük sərkərdəsi Pənahəli xan onları cəzalandırmaq qərarına gəlir. Sarayda məclis quran Pənahəli xan satqın erməni məliklərini və kilsə nümayəndələrini ora dəvət edir. Xan erməni məliklərinin xəyanətini sübut etdikdən sonra onların bir neçəsini şəxsən özü məhv edir, qalanlarını isə ömürlük həbsdə saxlanılması üçün Ərbədil xanına təhvil verir. Sarayda keçirilən məclisdə erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar. Məhz bundan sonra Pənahəli xan Qarabağın ərazilərini genişləndir. Bunun da nəticəsində Pənahəli xan İrəvan, Gəncə, Naxçıvan və Ərdəbili Qarabağ xanlığına birləşdirə bilmişdir. Təbii ki, Qarabağın ərazisinin genişlənməsi fonunda xanlığın güclənməsi İran şahını ciddi narahat etmişdir. Məhz bu narahatlığı aradan qaldırmaq və xanlığı məhv etmək üçün 1757-ci ildə Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etmişdir. Tarixdə ”Xatın arxı” kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə Pənahəli xan böyük iştəha və iddialarla xanlığa hücum etmiş Məhəmməd xan Qacarı məğlub etmişdir. Bu döyüşdə Pənahəli xan şəxsi şücaət, yüksək döyüş nümunəsi göstərmişdir. Darmadağın edilən indiki fars -molla rejiminin ərazisində olmuş xanlığın tör-töküntüləri qaçarkən o dövr üçün çox əhəmiyyətli hesab olunan 150-yə yaxın tüfəngi, 5 ədəd isə topu döyüş meydanında qoyub qaçmışlar. Sonrakı mərhələdə indiki fars -molla rejiminin ərazisində olmuş xanlıq erməni kilsəsi ilə əlaqələr yaratmış və Eçmiədzin kilsəsinin dəstəyi və qurulan məkrli oyun nəticəsində Pənahəli xan zəhərlənərək öldürülmüşdür. Bu isə onu təəssüf hissi ilə deməyə əsas verir ki, dünən olduğu kimi, bu gün də fars-molla rejimi ermənilərlə, xüsusilə də erməni kilsəsi ilə əməkdaşlıq edir.

***İLHAM ƏLİYEV***

# AMEA Mərkəzi Elmi Kitabxana fondlarının inkişaf tarixindən

**Kitabxana fondları xalqın milli, mədəni, ənənəvi sərvətlərini toplayıb mühafizə edərək gənc nəsillərə çatdıran bilik xəzinəsidir. XX əsrdə Azərbaycan elminin ən böyük uğurlarından biri, onun çoxsahəli elmi kitabxanalar şəbəkəsinin yaranmasıdır. AMEA Mərkəzi Elmi Kitabxanası Azərbaycanın görkəmli ziyalıları N. Nərimanov, Ə.Haqverdiyev, T.Şahbazi, H.Zeynallı və başqalarının təşəbbüsü və yaxından köməyi ilə "Azərbaycanı Tədqiq və Tətöbbö cəmiyyəti"nin nəzdində yaradılıb.**

1925-ci ildə kitabxananın fondunda artıq çoxlu kitab və əlyazma var idi. Kitabların əksəriyyəti Azərbaycanşünaslığa, Qafqazşünaslığa, ölkəşünaslığa, şərqşünaslığa, türkologiyaya və s. elmlərə aid idi. Öz qarşısına bütün elm sahələrinə xidmət etməyi məqsəd qoyan kitabxananın fondu ümumi elmi xarakter daşıyırdı. Kitabxana oxucularının sayı getdikcə çoxalır, respublikanın bütün alimlərinə və ali məktəb tələbələrinə xidmət göstərir, geniş sorğu-məlumat işi aparırdı.

O zaman kitabxana fondu 430 nüsxə kitab və 200 qiymətli əlyazmadan ibarət idi. Kitabxananın təşəbbüskarları öz şəxsi kitablarından kitabxanaya hədiyyə etmiş, şəhər və rayonlardan şərq dilli əlyazma ədəbiyyatlarını toplayıb kitabxanaya təhvil vermişlər. 1934-cü ildə kitabxananın fondunda 46 min 500 nüsxə kitab və jurnal var idi. Kitabxana öz fondunu dövri mətbuatla komplektləşdirmək işinə xüsusi əhəmiyyət verirdi. 1934-cü ildə kitabxana 110 adda dövri mətbuat alırdı. 1935-1940-cı illər Elmlər Akademiyasının kitabxana şəbəkəsinin yaranması və təşəkkülü mərhələsidir. Bu illər ərzində kitabxanada müxtəlif elm sahələrinə dair zəngin fondlar formalaşmağa başlamışdır. Fondlarda Azərbaycan dilində olan elmi ədəbiyyatla yanaşı, rus, Avropa və Şərq xalqları dillərində XVIII-XX əsrlərdə nəşr olunmuş monoqrafiyalar, jurnallar, məcmuələr, müxtəlif dünya elmi cəmiyyətlərinin əsərləri, xəritə, atlas və digər materiallar cəmləşdirilib oxucuların istifadəsinə verilmişdir.

Bu illər ərzində kitabxana SSRİ EA Kitabxanasından, müxtəlif elmi-tədqiqat institutlarından, xarici ölkələrdən və ayrı-ayrı şəxslərdən olduqca qiymətli kitablar əldə etməyə müvəffəq olmuşdu. Kitabxana "Aktı Kavkazskoy Arxeoqrafiçeskoy Komissii" (12 sild) "Sbornik materialov dlə opisanıə mestnostey i plem n Kavkaza" (46 cild), "Kavkazskiy vestnik", "Zapiski kolleqi vostokovedov", "İzvestiə kavkazskoqo muzeə", "Kavkazskiy sbornik" və s. kitab və jurnallar almışdı.

Kitabxananın ən qiymətli şöbələrindən biri Şərq şöbəsi idi. Bu şöbə 1933-cü ildə təşkil edilmişdi. Həmin şöbədə Şərq xalqlarının dilində nadir tapılan 15.000 dən artıq qiymətli ədəbiyyat toplanmışdı. Bu kitabların içərisində XVIII-XIX əsrdə İstanbul, Tehran, Təbriz, Qahirə və s. şəhərlərdə litoqrafiya üsulu ilə çap edilmiş kitablar, 100-dən artıq isə əksəriyyəti XV-XVI əsrlərə aid olan ən qiymətli əlyazmaları var idi. Şöbə Azərbaycan klassiklərindən M.F.Axundovun, A.Bakıxanovun, C.Məmmədquluzadənin şəxsi kitabxanalarını almış, Nizaminin, Füzulinin yeni əlyazmalarını əldə etmişdi.

1935-ci ildə kitabxana xarici ölkələrdən: Türkiyənin, İranın, Fransanın, İngiltərənin, Danimarkanın, İsveçrənin, ABŞ-ın, Portuqaliyanın, Finlandiyanın və s. ölkələrin elmi müəssisələri, universitetləri, akademiyaları və kitabxanaları ilə əlaqə yaratmağa müvəffəq olmuşdur. Kitabxana 1937-ci ildə Moskva və Sankt-Peterburq



*Sadıqova Kübra*
*AMEA MEK-in Xarici dillərdə ədəbiyyat fondunun rəhbəri*

kitabsaxlayıcılarından 75.000 manatlıq 20.000 nüsxə kitab aldı. Kitabxana öz fondunu dövri nəşrlərlə də zənginləşdirməyə diqqət yetirirdi. 1936-cı ildə 102 adda xarici nəşrlər və 200 dən artıq sovet dövri nəşrləri alırdı.

Burada Şərqə aid nadir elmi kitablar, müxtəlif dərsliklər, ensiklopediya və lüğətlər, məcmuələr, dövrü mətbuat nüsxələri, 1920-ci ilə qədər Azərbaycanda nəşr edilmiş ədəbiyyatın Arxiv fondu və 64 adda dövrü mətbuat nüsxələri, fotosurətlər və mikrofilmlər mühafizə olunur. Fondda, həmçinin Şərq xalqlarının qədim və yeni tarixi, ədəbiyyatı, din, fəlsəfə və incəsənətinə dair nəşrlərdən, alim-səyyahların əsərlərindən ibarət zəngin kitab xəzinəsi toplanmışdır.

İnqilaba qədər və inqilabdan sonrakı ilk dövrlərdə Azərbaycanda nəşr olunmuş kitab və dövrü mətbuatı özündə cəmləşdirən Arxiv fondu istifadə baxımından alim və tədqiqatçılar üçün böyük əhəmiyyətə malikdir. Arxiv fondu Azərbaycanın ictimai-fikir tarixinin öyrənilməsində böyük rol oynayır. Bu fond nəinki Azərbaycan xalqının, eləcə də Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatının tədqiqi, araşdırılması və öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Milli sərvətimizin bir hissəsi olan AMEA MEK-in Şərq ədəbiyyatı fondunun mövcudluğu sayəsində tarix, coğrafiya, fəlsəfə, məntiq, dil və ədəbiyyat, ilahiyyat, şərqşünaslıq, astronomiya, iqtisadiyyat, tibb, fizika, riyaziyyat və s. elm sahələrinə aid yazılan yüzlərlə sanballı tədqiqat əsərləri Şərq fondunun kitab xəzinəsinə daxil olmuşdur.

Böyük vətən müharibəsi illərində yeni elmi axtarışlar aparan alimlərin kitaba və məlumat materiallarına olan tələbatı xeyli artır, kitabxana fondları da zənginləşirdi. Kitabxana Azərbaycan Dövlət Kitab Palatasından məcburi nüsxələri müntəzəm almaqla yanaşı, Moskva, Sankt-Peterburq, Daşkənd, Tibilisi, Yerevan, Aşqabad və SSRİ-nin digər şəhərlərindən kitablar alırdı. SSRİ EA limiti hesabına kitabxanaya xarici jurnallar və kitablar da göndərilirdi.

Kitabxanada 1945-ci ildə 134.478 sayda nüsxə ədəbiyyat var idi. 1946-cl ildə onların sayı 172.000-ə çatdırıldı. Təkcə 1946-cı ildə fondun sayı 25.000 nüsxə artmışdı ki, bunun da əksəriyyətini elmi ədəbiyyat təşkil edirdi. 1946-cı ildə qədim Şərq ədəbiyyatına aid 38 sayda nadir kitab əldə edilmişdi. Kitabxana öz fondunu zənginləşdirmək işini sonrakı illərdə də müntəzəm surətdə davam etdirmişdi. Müharibədən sonrakı illərdə kitabxananın ölkəmizin zəngin elmi kitabxanaları ilə əlaqəsi xeyli genişlənmiş, kitab mübadiləsi işi yaxşılaşmışdı. 1946-cı ildə kitabxana xarici dillərdə 813 nüsxə kitab və 297 adda jurnal almışdı. Artıq 1950-ci ildə kitabxananın fondunda 231.199 nüsxə kitab toplanmışdı..

1958-ci ildə kitabxananın fondunda yarım milyondan artıq kitab toplanmışdı ki, bunun da 144 min nüsxəsi xarici ədəbiyyat idi. Kitabxana 1960-cı ildə 50-dən artıq xarici ölkə kitabxanaları ilə əlaqə saxlayırdısa, 1970-ci ildə dünyanın 40 ölkəsinin 280 təşkilatı ilə əlaqə saxlamağa müvəffəq olmuşdu. Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti də kitabxananın beynəlxq əlaqələrinə mühüm yer verirdi. 60-cı illərdə xarici kitab fondunun dövriyyəsi əvvəlki illərə nisbətən on dəfədən çox artmışdı.

Bu dövrdə Mərkəzi Elmi Kitabxana hədiyyələr və şəxsi kolleksiyalar hesabına da xeyli zənginləşmişdi. Onlarla görkəmli Azərbaycan ziyalıları kitabxanaya öz şəxsi kolleksiyalarından hədiyyələr verməyə başlamışdılar. 1964-cü ildə akademik Derjavin, prof. Y.A.Belyayev və prof. C.Cəfərov şərqşünaslığa dair şəxsi kitablarını kitabxanaya hədiyyə etmişlər.

1970-ci ildə kitabxana görkəmli şərqşünas alim, prof. Y.E.Bertelsin şəxsi kitabxanasını almağa müvəffəq olmuşdu ki, bu da kitabxananın Şərq fondu üçün olduqca əhəmiyyət kəsb edirdi. 1990-cı illərə qədər EA kitabxana şəbəkələrində elmi-informasiya sistemi formalaşıb, inkişaf etdirilmişdir. Bu illərdə EA kitabxana şəbəkəsinin elmi-biblioqrafiya fəaliyyəti, beynəlxalq kitab mübadiləsi daha da inkişaf etdirilmiş, nəticədə kitabxana fondları dünya elmi texnikasının son nailiyyətlərini əks etdirən minlərlə yeni nəşrlərlə zənginləşmişdir.

Azərbaycan EA kitabxana şəbəkəsinin inkişafının bütün mərhələlərində Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının əsasını təşkil edən bu kitabxana respublika elminə xidmət edən, elmin informasiya təminatını təmin edən ən böyük perspektivə malik olan kitabxanaya çevrildi. Müstəqillik illərində Azərbaycan elminin baş qərəgahı olan Azərbaycan Milli Elmlər Akademiyası xalqımızın ümummilli lideri dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi və qayğısı sayəsində böyük inkişaf və tərəqqi yolu keçmiş, mühüm elmi nailiyyətlər əldə etmişdir. Heydər Əliyev respublikamıza 30 illik rəhbərliyi dövründə daim Azərbaycan elminin hamisi olmuş, onun inkişafına böyük təkan vermişdir.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan elminin dirçəlməsinə, kitabxanaların nüfuzunun atrmasına səbəb oldu. Onun hakimiyyəti dövründə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Ümummilli lider 1998-ci il dekabr ayının 29-da bu qanuna imza atmaqla kitabxana sahəsinə olan qayğısını yüksək qanunvericilik səviyyəsində bildirdi

Azərbaycan Milli Elmlər Akademiyasının strukturunda Mərkəzi Elmi Kitabxana akademiya elminin informasiya mərkəzi kimi mühüm yer tutur. Respublika miqyasında təbiət, texniki və humanitar elmlər üzrə ən iri kitabxana sayılan AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50-dən çox dilində 1.500.000 nüsxəyə yaxın ədəbiyyat saxlayan zəngin, universal kitab fonduna malikdir. Bu möhtəşəm kitab məbədi 100 il ərzində böyük tərəqqi və inkişaf yolu keçərək Azərbaycan elminin və mədəniyyətinin qızıl fonduna çevrilmişdir.

Kitabxana təbiətşünaslıq və texniki elmlər üzrə depozitar kitabxana statusuna malik olduğundan burada saxlanılan kitablar içərisində təbiətşünaslıq və texnikaya aid sənədlər mühüm yer tutur. 1999-cü ildə AMEA-nın xahişi ilə Rusiya Elmlər Akademiyası "Nauka" nəşriyyatının nəşr etdiyi jurnalların Mərkəzi Elmi Kitabxanaya göndərilməsi haqqında sərəncam verdi. 1999-cu ildə kitabxana Rusiyada həyata keçirilən "Puşkin meqalayihəsi"nə qoşulmuş və bu layihə müvafiq olaraq Rusiya Federasiyasında nəşr edimiş 1000 nüsxədən artıq qiymətli kitab əldə etmişdir.

1994-2004-cü illərdə kitabxana 63 dövlətin 610 kitabxanası, təşkilatları, cəmiyyətləri, elmi mərkəzləri, nəşriyyatları, ilə əlaqə saxlayırdı. Kitab mübadiləsi yolu ilə bu dövr ərzində 35.859 nüsxə elmi ədəbiyyat alınmışdır ki, bu da olduqca böyük nailiyyətdir. Fransa səfirliyinin köməyi ilə 2002-ci ildə kitabxanada Azərbaycan və Fransa arasında dövlətlərarası dostluq əlaqələrinin möhkəmlənməsində "Azərbaycan-Fransa elmi-mədəni əlaqələr zalı" açılmış, bu zal üçün Fransadan 1000 avro dəyərində qiymətli ədəbiyyat gətirilmişdir. Həmçinin Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfirliyi tərəfindən kitabxanaya ərəb dilində 600 nüsxə kitab, Almaniya səfirliyi vasitəsilə "Alman tədqiqat cəmiyyəti" tərəfindən Leopold Qmelinin 734 cildlik "Kimya məlumat kitabı"nı hədiyyə vermişdir.

Bu gün "Xarici dillərdə ədəbiyyat fondu"nda 1.009.896 sayda rus, Şərqi Avropa və Qərbi Avropa dillərində elmin müxtəlif sahələrinə aid kitablar, yüzlərlə sanballı tədqiqat əsərləri qorunmaqdadır. Fondumuzda qorunan ən qiymətli kitablar Azərbaycan müəlliflərinin Avropa dillərində çap edilmiş və oxucular tərəfindən ən çox tələb edilən isə alimlərimizin xaricdə nəşr olunmuş monoqrafiyalarıdır

Zəngin tarixə malik elm və mədəniyyət ocağı olan Mərkəzi Elmi Kitabxana bu gün də müasir şəraitə uyğun fəaliyyət göstərir. Qeyd edək ki, bu gün burada müxtəlif ölkə kitabxanalarının təcrübəsi tətbiq olunur. İki növbəli fəaliyyət göstərən kitabxanadan alim və mütəxəssislər, eləcə də digər oxucular geniş faydalana bilir. Kitabxanamız milli maraqlara xidmət edir. Görkəmli kitabxanaşünas alim Stasov XIX əsrdə demişdir ki,"Yaxşı kitabxanaçı hər bir elmi tədqiqatçının yaxın köməkçisidir". AMEA MEK-i bu şüarı öz işində rəhbər tutaraq qarşıya çıxan çətinliklərin öhdəsindən layiqincə gəlməyə çalışır. Bu ordu gələcəkdə də zamanın qoyduğu bütün sınaqlardan uğurla keçərək oxucu qarşısında xidmət etməyə hər zaman hazırdır.

# Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir

Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər gəldikdən sonra respublikanın sosial-iqtisadi həyatının əsas sahələrindən olan elektrik enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirmiş, bir çox irimiqyaslı layihələr reallaşdırmışdır. Ulu öndərin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə keçən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdır. Həmin dövrdə yeni elektrik stansiyalarının, yarımstansiyaların və yüksək gərginlikli



***Əbilfəz MAHMUDOV***
***Energetik***




elektrik verilişi xətlərinin inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu. Ümummilli liderimizin Azərbaycana rəhbərliyi dövründə - 1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində gücü 22 MVt olan ”Araz” Su Elektrik Stansiyası inşa edilmiş, 1972-ci ildə 2 saylı Sumqayıt İstilik Elektrik Mərkəzinin gücü 220 MVt-a çatdırılmış, 1976-1977-ci illərdə Sərsəng su anbarı və gücü 50 MVt olan eyni adlı su elektrik stansiyası istifadəyə verilmiş, 1982-ci ildə isə gücü 380 MVt olan Şəmkir Su Elektrik Stansiyası istismara buraxılmışdır. Mingəçeviri nəinki Azərbaycanın, ümumiyyətlə Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olmuşdur.

Onun rəhbərliyi və təşəbbüsü ilə 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının - ”Azərbaycan İES”-in təməli qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində bu stansiyanın inşası prosesinin ümumittifaq səviyyəsində aparılması, tikinti prosesinə ən peşəkar mütəxəssislərin cəlb olunmasına, müasir texniki vasitələrdən istifadəyə şərait yaratmışdır. Stansiyanın birinci enerji bloku Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş və bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Ölkə elektrik enerjisi sisteminin sütununu təşkil edən bu stansiya indi də müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna rola malikdir. Bu stansiyanın istismara verilməsi ilə elektrik enerjisi sistemində başlanan inkişaf və tərəqqi prosesi nəticəsində respublikamız özünün müstəqil, dayanıqlı enerji sistemini formalaşdıra bilmişdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin elektrik enerjisi ilə təminatı problemi öz həllini tapmışdır. Azərbaycan 1969-cu ildə elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə həm də elektrik enerjisi ixrac edən respublikaya çevrilmişdir.

Dövlətimiz ölkənin enerji təhlükəsizliyinin təminatı və enerji potensialının daha da gücləndirilməsi məqsədilə irimiqyaslı layihələrin reallaşdırılmasını davam etdirir. Bu baxımdan iyunun 24-də Mingəçevirdə yeni, ”8 Noyabr” Elektrik Stansiyasının istismara verilməsi vacib və təqdirəlayiq hadisədir.

Stansiyanın açılış mərasimində iştirak edən cənab Prezident İlham Əliyev öz çıxışında ”8 Noyabr” Elektrik Stansiyasının Azərbaycanda ən böyük elektrik stansiyası olmasını xüsusi vurğuladı.

1880 meqavat gücündə olan bu stansiya ölkənin enerji potensialını təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq. Dövlətimizin başçısı Mingəçevir şəhərinin artıq 1970-ci illərdən başlayaraq Azərbaycanda energetika sektorunda mərkəzi rol oynadığını diqqətə çatdırdı. Qeyd olundu ki, 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Mingəçevirdə ”Azərbaycan” İstilik Elektrik Stansiyasının təməli qoyulmuşdur və Ulu Öndərin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilmişdir.

Bu gün biz dünyada müşahidə olunan, demək olar, bütün silahlı münaqişə zonalarında energetika obyektlərinin, ilk növbədə, hücuma məruz qalan hədəflər sırasında olduğunu görürük. Əlbəttə ki, bunda məqsəd qarşı tərəfin enerji potensialını sarsıtmaq, onu iflic vəziyyətə salmaqdır.

Öz çıxışında cənab Prezident bu məsələyə toxunaraq bildirdi ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün Avropa məkanında enerji xətlərinin təhlükə altında olmasının çox böyük fəsadlara gətirib çıxarması da bunu təsdiq edir. Təsadüfi deyil ki, bu gün Avropa İttifaqı tamamilə haqlı olaraq özünün enerji təhlükəsizliyini təmin edən ölkələr sırasında duran Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki hazırda Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir və onlardan 10-u Avropa ölkəsidir. Məlum olduğu kimi, qaz təchizatının coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Bir çox ölkələr Azərbaycan qazından istifadə etməklə özünün enerji təhlükəsizliyini təmin edir. Ölkəmiz təbii qaz, xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edir. Lakin yaxın gələcəkdə Azərbaycan artıq həm də yaşıl enerji ixrac edəcəkdir.

Beləliklə, cənab Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir.

# “XXI əsrdə dövlətlərin, imperiyaların da mahiyyəti dəyişməlidir”

“İranla İsrail arasında davam edən 12 günlük müharibə hərb tarixində yeni bir müharibə növü kimi qaldı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.O bildirib ki, bu müharibə sadəcə hava hücumu vasitələri ilə edilən və raket mübadiləsi ilə həyata keçirilən müharibə kimi yadda qaldı: ”İlk baxışda bu müharibə regionda sanki kardinal dəyişikliklər etmədi kimi görünsə də, amma dərin qatlarda, şübhəsiz ki, Yaxın Şərqin gələcəyi baxımından yeni reallıqlar formalaşdıracaq qədər əhəmiyyətli müharibə oldu. Nəzərə almaq lazımdır ki, biz sadəcə uzun illərdir müxtəlif formalarda İranla İsrail arasında davam edən müharibənin yeni bir fazasını gördük. Əgər bütövlükdə bu müharibəni sadəcə İran-israil münasibətləri kontekstində qiymətləndirməyə çalışsaq, 1979-cu ildə davam edən müharibənin birinci mərhələsi kimi səciyyələndirə bilərik. Çünki dərindən təhlil etsək, görərik ki, 1979-cu ildən başlayan İran-israil qarşıdurması müxtəlif mərhələlərdə baş verirdi. Həm ideoloji, həm dini, həm də vəkalət müharibələri kontekstində baş verirdi. Gəldiyimiz nöqtədə bu müharibə İsrailin böyük uğuru kimi qiymətləndirilə bilər. Çünki İsrail radikal məzhəb qruplaşmalarını Yaxın Şərqdən demək olar ki, təmizləməklə 12 günlük müharibənin yolunu açdı. Şiə milisləri, Suriyadakı rejim, İraqdakı İrana aid qüvvələr,



uzun illər ərzində Yəməndəki Husilər və sair bütün bunlara qarşı İsrail müharibə apararaq, nəhayət, onların böyük əksəriyyətini zərərsizləşdirdikdən sonra birbaşa İranla müharibəyə başladı. Ona görə də, bu müharibə İsrailin əldə etdiyi tarixi bir uğurdur, əlbəttə ki, radikal məzhəbçilərə qarşı”.

”İranın özünə gəldikdə isə biz həmişə İranda sabitliyin olmasını arzulamışıq. Amma İran bir imperiyadır və imperialist ideyalarla çıxış edir. Nüvə silahı da İrana öz imperiya mahiyyətini qorumaq üçün lazımdır. Bu isə təkcə İsrail üçün yox, bütün bölgə ölkələri üçün təhdiddir. Əgər İran nüvə silahına malik olarsa, əminəm ki, onu İsraildən daha əvvəl digər qonşu müsəlman ölkələrinə tətbiq edə bilər. Məsələnin mahiyyəti bundan ibarətdir. Ona görə də, düşünürəm ki, 12 günlük müharibə gələcək qəti müharibənin də yeni mərhələsini yaradacaqdır. Bu isə heç şübhəsiz ki, bütün regiona dərindən təsir göstərəcəkdir.Mənə elə gəlir ki, XXI əsrdə dövlətlərin, imperiyaların da mahiyyəti dəyişməlidir. Liberal dəyərlər əsasında və hüquq əsasında qurulan yeni beynəlxalq münasibətlər sistemi yaranmalıdır. Ona görə də, düşünürəm ki, Yaxın Şərq bu istiqamətdə tarixi hadisələrə şahidlik edəcəkdir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# 14 fevral, yoxsa 30 iyun?

“Sevgililər Günü” insan münasibətlərində sevgi və romantikanın ön plana çıxdığı, cütlüklərin bir-birinə olan hisslərini ifadə etdiyi xüsusi bir gündür. Ənənəvi olaraq bu bayram bir çox ölkədə 14 fevral tarixində qeyd olunur və bu tarix Roma dövründə yaşamış xristian şəhid Müqəddəs Valentin ilə əlaqələndirilir. Bu gün bir çox cəmiyyətlərdə güllər, hədiyyələr və romantik jestlərlə zəngin bir bayrama çevrilmişdir. Lakin zamanla, bəzi mədəniyyətlər və cəmiyyətlər alternativ tarixlərdə də sevgi bayramlarını qeyd etməyə başlamışlar. Məsələn, bəzi ölkələrdə və ya ictimai qruplarda 30 iyun tarixi də ”ikinci sevgililər günü” və ya sadəcə ”alternativ sevgi günü” kimi qeyd olunur.



14 fevralın əsasən xristian dini və Avropa mədəniyyəti ilə bağlı tarixi fonu olduğu üçün, bəzi insanlar bu günün universal olaraq hər cəmiyyətə uyğun gəlmədiyini düşünür. Bu səbəbdən 30 iyun kimi neytral və ya fərqli mənalar daşıyan tarixlərin irəli sürülməsi müəyyən ictimai dairələrdə maraq doğurmuşdur. Bu yanaşma həm də müxtəlifliyi, mədəni fərqliliyi və sevginin yalnız bir tarixə sığdırılmayacaq qədər geniş və universal bir anlayış olduğunu göstərmək məqsədi daşıya bilər. Bəs doğrudanmı Sevgililər Günü yalnız 14 fevralda qeyd olunmalıdır, yoxsa 30 iyun kimi alternativ tarixlər də qəbul edilə bilər? Bu sualın cavabı təkcə tarixi deyil, həm də mədəni, dini və sosial baxışlardan asılı olaraq dəyişir. Giriş kimi bu məsələ həm tarixi köklər, həm də müasir cəmiyyətlərin müxtəlif yanaşmaları əsasında müzakirəyə açıqdır. SİA mövzu ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov və sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyevin fikirlərini öyrənib.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov: ””Sevgililər Günü” bir çox ölkədə 14 fevralda



”Valentin Günü” adı altında qeyd olunur. Bu günün yaranması qədim Roma dövrünə gedib çıxır. Əfsanəyə görə, eramızın III əsrində Roma imperatoru Klavdiusun əsgərlərin evlənməsini qadağan etməsinə baxmayaraq, rahib Valentin gizlicə cütlükləri nikaha alırdı. Bu əməli səbəbilə Valentin tutulur və sonradan edam edilir. Onun xatirəsinə 14 fevral tarixi ”Valentin Günü” kimi qeyd olunmağa başlanır. Bu gün 490-cı ildə Papa Gelasius tərəfindən rəsmi olaraq qeyd günləri sırasına salınır və zamanla romantik sevginin simvoluna çevrilir. Azərbaycanda isə ”Sevgililər Günü” bəzi insanlar tərəfindən fevralın 14-də deyil, iyunun 30-da qeyd olunur. Bunun səbəbi ölkəmiz üçün faciəvi və eyni zamanda mənalı bir hadisəyə əsaslanır. Belə ki, 1990-cı ilin Qara Yanvar hadisələri zamanı sovet qoşunlarının Bakıya daxil olması ilə bir çox günahsız insan həyatını itirdi. Həlak olanlardan biri İlham idi. Bu xəbəri eşidən nişanlısı Fəridə böyük sarsıntı keçirərək özünü binadan ataraq intihar etdi. Onların toy tarixi iyunun 30-u olduğuna görə, bu gün bir çox azərbaycanlılar tərəfindən saf və fədakar sevgini simvolizə edən ”Azərbaycan Sevgililər Günü” kimi anılır”.

**Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev:** ”Subyektiv fikrimə görə, ”Sevgililər günü” deyilən konkret bir tarixə ehtiyac yoxdur. Çünki sevginin günü olmur. Sevən insanlar hər gün sevir, sevməyənlər isə ”Sevgililər Günü”ndə belə sevgidən uzaqdırlar. Əslində, sevgi gündəlik həyatın, münasibətlərin və insanlığın bir hissəsidir. Onu bir günlə məhdudlaşdırmaq nə qədər doğrudur? Ümumiyyətlə, istər bayram, istərsə də digər xüsusi günlər qeyd ediləndə, həmin günün tarixçəsinə nəzər salmaq vacibdir. Məşhur 14 fevral - ”Sevgililər Günü” olaraq tanınsa da, onun tarixi və mənşəyi bizim milli-mənəvi və dini dəyərlərimizə ziddir. Qədim Romada 14 fevral günü qadınlıq və evlilik ilahəsi olan Juno'ya həsr edilmişdi. Bu gündə şənliklər keçirilir, xalq bayram edirdi. Ertəsi gün, 15 fevralda isə Luperkalia adlanan bir festival başlanırdı. Bu festival çərçivəsində gənclər arasında püşkatma yolu ilə cütlüklər seçilir, həmin cütlüklər bayram günlərində birlikdə vaxt keçirir və bəzən də cinsi münasibətlər yaşayırdılar. Bu adət isə heç bir halda bizim əxlaqi-mənəvi dəyərlərimizə uyğun gəlmir. Roma imperatoru II Kladius dövründə evlilik qadağası tətbiq edilmişdi, çünki onun fikrincə, ailə həyatı gəncləri hərbi xidmətdən yayındırırdı. Həmin dövrdə rahib Valentin bu qadağaya baxmayaraq gizli şəkildə gəncləri evləndirirdi və buna görə də həbs olunaraq edam edilmişdi. Bəzi mənbələrdə Valentinin həbsxanadan dostlarına ”Səni sevirəm”, ”Məni unutma” şəklində məktublar göndərdiyi bildirilir. Bu fakt bəzən onun seksual yönəlimi ilə bağlı fərziyyələrə də səbəb olmuşdur. Bütün bu tarixi faktlar 14 fevralın bizim milli-mənəvi və dini dünyagörüşümüzlə uyğunlaşmadığını açıq şəkildə göstərir. 30 iyun isə Azərbaycan xalqının qan yaddaşında qalmış bir sevgi hekayəsini əks etdirir. 1990-cı ilin 20 Yanvar hadisələri zamanı şəhid olan İlhamın və onun ölümünə dözməyərək intihar edən həyat yoldaşı Fərizənin toy günü məhz bu tarixə təsadüf edir. Bu hadisə təkcə faciə deyil, həm də əsl sevginin, sədaqətin nümunəsidir.

Hərçənd ki, həyat yoldaşını itirən bir insanın intihar etməsi dini baxımdan yolverilməzdir, çünki can Allahın verdiyi bir əmanətdir və ona qıymamaq hər bir müsəlmanın borcudur. Buna baxmayaraq, bu hadisə sevginin fədakarlıq və dərin bağlılıq səviyyəsinə çatmasının bir göstəricisi kimi yadda qalmışdır. Əgər seçim etməli olsaq, 30 iyunun




”Sevgililər Günü” kimi qeyd olunması daha mənalı və milli ruhumuza uyğun olar. 14 fevral xristian Roma tarixindən gəlmə bir ənənədir. Halbuki 30 iyun bizim qan yaddaşımızda iz buraxmış, sevgi və fədakarlıqla yoğrulmuş bir gündür. Bu səbəbdən mən 30 iyunun ”Sevgililər Günü” kimi qeyd edilməsinin tərəfdarıyam”.

***Söylü Ağazadə***

## FELYETON



# Ölüm haqdır, nə edək?..

Bizdə belədir ki, bir nəfər ölən kimi bir-birimizə xəbər verib yığışıb gedirik baş sağlığı verməyə. Lap yaxşı. ”Sevinc paylaşdıqca çoxalar, kədər paylaşdıqca azalar” deyiblər. Baş sağlığı da ki, verdin, ta dur get işinin-gücünün dalınca kimi deyil bizdə. Saatlarla otururuq, ta ev yiyəsini təngə gətirmədən durub getmirik. Mətləbdən uzaqlaşıram, bilirəm, amma onu da deməsəm olmaz ki, hələ aramızda elələri də var ki, yasa ancaq yemək saatında gedir. Nə isə...

Keçək mətləbə. Sözümün canı odur ki, getdiyimiz yasda ev sahibinə baş sağlığımız yalnız bu sözlərdən ibarət olur: ”Ölüm haqdır, nə etmək olar ki”. Bu ölən haqlı yerə ölüb, haqsız yerə ölüb, durduğu yerdə ölüb, ya bəzi həkimlərin səhiyyə elmini ”mükəmməl” mənimsəməsindən ölüb, bir sərxoş sürücü yazığı yol ilə getdiyi yerdəcə vurub öldürüb, qoz çırpanda ağacdan düşüb ölüb, damın qarını təmizləyəndə oradan yıxılıb ölüb, hamamda qaz boğub öldürüb, sayğacın başına oyun açanda elektrik qurudub öldürüb, qiymətlərin bahalığından infarkt keçirib ölüb, köhnə qida yeyib zəhərlənib ölüb, xəstə olub, əcəli çatıb ölüb, hər nə isə, ölənin hamısına ”Nə etməli, ay bacı, ay qardaş, ölüm haqdır” təsəllisini verib işimizi tamam hesab etmiş oluruq.

Bu əcəlsiz ölümlərin sayını azaltmaq üçün insanları ha maarifləndir, ha maarifləndir, xeyri yoxdur. Ha de ki, əcəlini özün gətirmə, ay adam. İmkan ver, alın yazının vaxtı gəlib çatsın. Sənə kim deyir ki, bir yerin ağrıdımı, həkimə gedəsən? Pulun var, bir yaxşı həkim tap, yoxdur, otur yerində türkəçarədən, zaddan, bir şey elə, ümidini də ki, Allahdan kəsmə.

Sənə kim deyir ki, qazla işləyən istilik cihazını apar qoy hamam otağına, o da səni boğub öldürsün. Axı ötən il, keçən həftə, srağa gün bu dərddən ölənlərə ”Əşi, bunun ağlı-zadı heç yoxmuş”,- deyən sən idin. Ay qardaş, ay bacı evinizdə yer yoxdur, yoxsa şüurunuz yoxdur?

Sənə kim deyir ki, sayğaca müdaxilə edəsən, ölüb oradaca qalasan? Canın çıxsın oğurluq eləmə, ölmə.

Sənə kim deyir ki, çıxıb ağacdan qoz çırpasan, qonşunda bu bəlanın qurbanlarının qəbrini axı elə özün qazmısan.

Sənə kim deyir ki, qışın qarında-boranında çıxıb damın qarını təmizləyəsən. Durub da orada, yaz gələndə əriyib gedəcək.

Sənə kim deyir ki, get dükana, bazara, qiymətləri dünən, srağagünkü kimi görməyib infarkt keçirəsən, ay qardaş, bu, belədir də, hər gün qiymətdir ki, qalxır, təzə xəbərdir niyə bu? Palaza bürün, elnən sürün də. Bunu biz necə qəbul ediriksə, sən də qəbul elə, çox yemə, az ye, ölmə də.

Sənə kim deyir ki, get vaxtı keçmiş qida al, ye. O gözü Allah nə üçün verib sənə? Bir bax, gör nə alırsan da. Onsuz da insaf ərşə qalxıb.

Sənə kim deyir ki, düş yolun ortasına, axı sərxoşu var, dəliqanlısı var, atasının balası var. Ay adam, bir-iki addım o tərəfdə səki var, yerüstü, yeraltı keçidlər var, onu nə üçün düzəldiblər, sənin hərəkətin üçün ediblər də. Bəs bunu nə vaxt anlayacaqsan? Səki ilə, piyada keçidi ilə get, maşın da səni vurub öldürməsin də.

Sabah, Allah eləməsin, birini avtomobil vurub yerə yıxanda yenə yığışıb gedəcəyik evinə, deyəcəyik ki, ölüm haqdır, nə etmək olar. Gəlin heç olmasa bu dəfə başqa söz deyək. Deyək ki:

Sənə kim deyir ki, piyada keçidlərini qoyub, düşürsən yolun ortasına. Dəli kimi yolda maşınların arası ilə o yana, bu yana qaçırsan? O keçidləri tikənlər səndən ağıllızdır ki...

Qaldı söz dinləməyənlərə, ölüm haqdır, Allah ölənlərin hamısına rəhmət eləsin!

***Mətanət Məmmədova***

MÜNASİBƏT

# "Azərbaycan mediası öz işini peşəkar formada yerinə yetirir"

**"Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il tarixli Sərəncamında qeyd olunur ki, Azərbaycan mediası Vətən müharibəsi dövründə əsl vətənpərvərlik, həmrəylik nümunəsi sərgiləyib. Prezidentin Sərəncamında yer tutan bu cümlələr mediamızın həm peşəkar, həm də vətənpərvər olduğunu göstərir və Azərbaycan jurnalistikasının tarixi fəaliyyətini qiymətləndirmək üçün mənbə rolunu oynayır. Sərəncam Azərbaycan mediasının keçmiş fəaliyyətini qiymətləndirməklə yanaşı, həm də jurnalistikamızın gələcək fəaliyyətindən gözləntiləri ifadə edir". Bu sözləri SİA-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib.**

O bildirib ki, diqqət yetirsək görərik ki, Azərbaycan mediası öz işini, həqiqətən də, peşəkar formada yerinə yetirir: cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsi missiyasını uğurla davam etdirir: "Bununla yanaşı, Azərbaycan mediası həm də vətənpərvərdir, milli təəssübkeşlik hissi yüksəkdir. Son 30 il müddətində cəbhə xəttinə yollanan, Qarabağ həqiqətlərini işıqlandırmaq, Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırmaq istəyən 11 nəfər media işçimiz fəaliyyətini yerinə yetirərkən şəhid olub. Onlarla jurnalistimiz fiziki xəsarətlər alıb. Yəni, Azərbaycan jurnalistləri sözü, qələmi ilə informasiya məkanımızı qoruduğu kimi, yeri gələndə canı və qanı bahasına torpaqlarımızın keçiyində dayanır. Bu iki komponentin vəhdətdə olması, Azərbaycan mediasının simasını müəyyən edir.



Peşəkar mediamız eyni missiyanı bu gün də davam etdirir. İnformasiya məkanımızın kənar müdaxilərdən qorunmasında, ictimai rəyin sabit tutulmasında, düzgün istiqamətə yönəldilməsində mühüm rol oynayır. 44 günlük Vətən müharibəsi zamanı dünya mediası Azərbaycanın həyata keçirdiyi hərbi əməliyyatlar barədə məlumatları daha çox Türkiyə informasiya agentliklərindən və Türkiyə TV-lərindən alırdılarsa, indi bu tendensiya dəyişib. 2021-ci ildən sonrakı bütün proseslərdə xarici medianın istinadları tamamilə Azərbaycan mediasının üzərinə köklənib.

Hesab edirəm ki, bu nailiyyətlərin əldə edilməsində Azərbaycan dövlətinin, xüsusilə, cənab Prezidentin göstərdiyi qayğı və diqqət mühüm rol oynayır. 2022-ci ildə qüvvəyə minmiş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət və media münasibətlərinin hüquqi mənzərəsini aydınlaşdırır. Yeni qanunu rəqəmsal transformasiya dövründə media subyektlərinin tiplərinin qorunub saxlanılmasını təmin edir. "Media haqqında" yeni Qanun ölkəmizdə fəaliyyət göstərən jurnalistlərin səlahiyyətlərini müəyyənləşdirmək, haqlarını qorumaq üçün faydalıdır. Qanunun qəbulundan 3 ay sonra, 13 may 2022-ci il tarixində Azərbaycanda kütləvi informasiya məhsullarının ərsəyə gəlməsi üçün kağızın idxalı və satışı Əlavə Dəyər Vergisindən (ƏDV) azad edilib. Bu dövr ərzində media subyektlərinin inkişafını təmin



etmək üçün verilən dövlət dəstəyinin həcmi artırılıb. Məlumat üçün bildirək ki, 2009-2020-ci illərdə ölkədə dövlət hesabına yalnız çap media subyektlərinə - qəzetlərə dəstək göstərilirdisə, indi həmin dəstək həm də onlayn media subyektlərinə aid edilir. Son 3 ildə hər il üzrə 39 xəbər saytı (xəbər portalı) və 17 qəzet redaksiyası olmaqla ümumilikdə 56 media subyektinə maliyyə yardımı ayrılır. Dövlətin verdiyi dəstək ölkədə KİV qollarının paralel inkişafını təmin edir. Azərbaycan media məkanı son 4 il ərzində aparılan çalışmaların nəticəsi olaraq, tərəqqipərvər, ictimai əhəmiyyət daşıyan media məkanına çevrilib".

***Söylü***

# "Rusiya tərəfinin xalqımıza qarşı həyata keçirdikləri təəssüf doğurur"

"Tarix boyu Azərbaycan xalqı qonşularla münasibətdə həmişə xeyirxahlıq, səmimiyyət və insani münasibətlər nümayiş etdirib. Azərbaycan ərazisində mövcud olan dövlətlər, o cümlədən Səfəvi imperiyası heç bir xalqa qarşı zülm, dini ayrı-seçkilik, şovinizm və diskriminasiya siyasəti həyata keçirməmişdir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Anar İsgəndərov deyib.O bildirib ki, çox təəssüflər olsun ki, son günlərdə Rusiya Federasiyası ərazisində baş verən hadisələr ayrı-ayrı insanlara qarşı yox, bütövlükdə türkmüsəlman dünyasına qarşı milli ayrı-seçkiliyin əyani nümunəsidir: "Azərbaycana məxsus təyyarəyə qarşı həyata keçirilən terror aktı göstərdi ki, Rusiya Federasiyasında müəyyən qüvvələr müstəqil Azərbaycanın uğurlarına qısqanır və iki qonşu dövlət arasında münasibətlərin inkişafına mane olmaq istəyir. Bu qüvvələr bəlkə də indiyə bəzi istəklərinə nail ola biliblər. Çünki Yekaterinburqda azərbaycanlılara qarşı həyata keçirilən zorakılıq və çoxsaylı ölümlə nəticələnən faciə göstərdi ki, Rusiya yüz illər boyu onun ərazisində məskunlaşan , bu ölkənin inkişafı üçün əlindən gələni edən azərbaycanlı əhaliyə qarşı insanlığa sığmayan hərəkətlər nümayiş etdirir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda heç bir xalqın nümayəndəsi, o cümlədən rus xalqının nümayəndələri nə dini ayrı-seçkiliyə, nə də milli zülmə məruz qalmışlar. Bu gün Azərbaycan dünyanın ən tolerant dövləti kimi nufuz qazanıb. Bu reallığı heç kim inkar edə bilməz.Bəli, Rusiya Federasiyası Ukrayna dövləti ilə üç ildən çoxdur ki, qanlı müharibə aparır. Rusiya bu müharibəni öz xeyrinə həll etmək üçün miqrantları da qanunsz şəkildə cəbhələrə göndərir. Çox zaman miqrantları müharibəyə cəlb etmək üçün onları ailə üzvlərinin ölkədən çıxarılması ilə hədələyir, təzyiq və şantaj metodlarından istifadə olunur. Ciddi narahatlıq doğuran hal odur ki, qeyri-rus əhalisinə qarşı həyata keçirilən bu mənfur siyasət bir nəfərin qəzəbi kimi qiymətləndirilə bilməz. Bu işdə əli olanların sayı kifayət qədərdir.Rusiyanın yüksək çinli məmurları da etiraf edirlər ki, Ukrayna ilə aparılan müharibə beynəlxalq hüququn bütün normalarına ziddir. Miqrantlar nə üçün bu mürabinin iştirakçısı olmalıdırlar? Onlar Rusiyaya pul qazanmağa, ailələrini dolandırmağa üz tutublar. Rusiya Federasiyasının uzun illər Ermənistana havadarlıq etməsi, milyard dollarla silahın Ermənistana bağışlanması və Azərbaycanın tarixi torpağı olan Qarabağın işğalı uzaq tarix deyil. 20 yanvar qırğını, Xocalı faciəsi və onlarla qəddarlıq və soyqırım Azərbaycan xalqının yaddaşından silinməyib".



"Bu gün dünyanın əksər dövlətləri Rusiyanın Ukraynaya təcavüzü ilə bağlı birləşib. Qərb dövlətləri az qala hər ay Rusiyaya qarşı sanksiya paketi qəbul edir. Rusiya Qərbin hücumlarına qarşı müdafiə olunmaq əvəzinə Rusiyada yaşayan müsəlman xalqlarına, o cümlədən etnik azərbaycanlılara qarşı hər cür amansızlıq və qəddarlıq tətbiq edir.Əsrlər boyu slavyan xalqları ilə bir cəbhədə olan, ikinci dünya müharibəsində 300 mindən artıq əsgər və zabit itirən Azərbaycan və azərbaycanlıların qəhrəmanlığı nə tez unuduldu? Bakı nefti olmasaydı SSPİ-nin ikinci dünya müharibəsində faşizm üzərində qələbə çalması mümkün deyildi deyən sovet rəhbərliyinin bu fikri nə tez yaddan çıxdı?Rusiyanın müstəqil Azərbaycana qarşı kiber hücumları, millət vəkili, Azərbaycan-Rusiya Federasiyası parlamentlərarası dostluq qrupunun üzvünə qarşı Rusiya tərəfinin qanunsuz hərəkətləri bağışlanmazdır. Əsrlər boyu Azərbaycan xalqı böyük Nizami, Nəsimi, Füzuli, Vaqif və başqa klassiklərimizlə yanaşı Puşkini, Çexovu, Dostoyevskini, Tolstoyu və başqalarını da oxudu, təbliğ etdi və sevdi.

Xalqımızın klassiklərdən öyrəndikləri ilə bu gün Rusiya tərəfinin xalqımıza qarşı həyata keçirdikləri təəssüf doğurur.Azərbaycan dünyanın gözü qarşısında düşmən tərəfindən işğal olunmuş torpaqlarını geri aldı, düşmənin və havadarlarının arzu və istəklərini ürəklərində qoydu. Azərbaycan xalqını dəmir yumruğ kimi birləşdirmək gücündə olan Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycanı qalib xalqların cərgəsinə daxil etdi. Cənubi Qafqazda əmin-amanlıq üçün, qonşu xalqlarla sülh şəraitində yaşamaq üçün Azərbaycan həmişə ədalətin, sülhün yanındadır" - deyə o, əlavə edib.

***S. Ağazadə***



# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

**ELMİN SONU**

*(XXVIII YAZI)*

Seriyamızın bundan əvvəlki hissələrindən başlayaraq insan orqanizmində insanın necə yaranması haqda maraqlı faktları təqdim edirik. Bu hissədə də embrionun ana bətnində yaradılışında gördüyümüz möcüzələrdən danışacağıq.

***İnsan orqanizmindən insan necə yaranır? 3-cü hissə***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*









İlk günlərdə ana qanından yalnız lazımi qidaları qəbul edən döl sonrakı mərhələdə öz bədənini qidalandırmaq və hüceyrələrinə oksigen göndərmək üçün öz qan dövranı sisteminə ehtiyac duyur. Bu sistemin meydana gəlməsi üçün bir çox hüceyrələr əməkdaşlıq etmək qərarına gəlir və qan dövranı sistemini meydana gətirməyə başlayır. Təxminən 13-cü gündə bir qrup hüceyrə embrionun döş nahiyəsində toplanaraq ürəyi əmələ gətirir. Əvvəlcə çox şüurlu bir şəkildə U hərfinə bənzəyən bir boru meydana gətirərək ürəyin təməlini təşkil edirlər. Bu vaxt minlərlə başqa hüceyrə ürəyin əmələ gəldiyi xəbərini almış kimi bütün bədəni bürüyəcək damarları meydana gətirməyə başlayırlar. Beləliklə, hüceyrələrin şüurlu şəkildə düzülməsi, lazımi bölgələrə hərəkəti və yerləşməsi ilə damarların əmələ gəlməsi 21-ci gündə tamamlanır. Qan dövranı sistemi artıq işləməyə hazırdır və ürək 22-ci gündə ilk döyüntüdən sonra dəqiqədə 60 döyüntü ilə işləməyə başlayır. İlk sancılar ürəyin uzunluğu boyunca dalğa kimi hərəkət edir. Ürək əmələ gəlməsini tamamladıqdan sonra müxtəlif kameralarda daralmalar müntəzəm olaraq davam edir.

Ürək döyünməyə başlayıb, amma hələ qan yoxdur. Bunun üçün məsul hüceyrələr var. Bu hüceyrələr yeni əmələ gələn insan orqanizmində "qan" adlı xüsusi bir maddənin lazım olacağını əvvəlcədən hesablayır və qan hüceyrələrinə çevrilir. Qan mayesi də damarlarda çox tez dövr etməyə başlayır. 4-cü həftənin sonunda ürək və damarlar tamamilə qanla dolmağa başlayır. Təbii ki, ürəyin, qan dövranı sisteminin və qan mayesinin əmələ gəlməsi özlüyündə heyranedici bir hadisədir. Bunların heç biri hələ mövcud olmadığı halda, hüceyrələr mükəmməl işləyən bir planla lazımi vaxtlarda lazımi yerlərdə məskunlaşır və insan həyatı üçün əvəzolunmaz olan qan dövranı sistemini qururlar. Burada qısaca qeyd etdiyimiz bu mərhələlərin heç biri təsadüfən baş verə bilməz; bu qüsursuz tikinti planı tək bir hüceyrənin çoxalması nəticəsində yaranan hüceyrələrə aid ola bilməz. Bu nöqtədə qarşılaşdığımız fakt açıq-aşkar yaradılış möcüzələrindən biridir.

Üstəlik, təkcə qan dövranı sisteminin formalaşması deyil, həm də hər bir elementin xüsusiyyətləri insanda heyranlıq doğuran tarazlıqlarla yaradılmışdır. Ana bətnində inkişaf edən körpənin qanı, ilk vəzifəsi üçün normal bir insanın qanından çox daha keyfiyyətli xüsusiyyətlərə malikdir. Məsələn, körpənin qanında olan hemoqlobin maddəsinin oksigeni saxlamaq qabiliyyəti böyüklərə nisbətən xeyli yüksəkdir. Bir embrionun 1 sm3 qanında qırmızı qan hüceyrələrinin sayı da yeni doğulmuş körpənin eyni miqdarda qanındakı qırmızı qan hüceyrələrinin sayından xeyli çoxdur. 4-cü aydan başlayaraq gündə təxminən 24 litr qan göbək bağından plasentaya keçir. Bu dövran o qədər sürətlidir ki, bir dövrə 30 saniyədə tamamlana bilər. Beləliklə, qan lazımi oksigeni və qidaları plasentadan hüceyrələrə aparmağa başlayır. Eyni zamanda böyrəklər də əmələ gəlir və qan hüceyrələrdən topladığı tullantıları böyrəklərə apararaq təmizləməyə başlayır.

Burada ortaya daha bir sual çıxır: Belə qüsursuz bir sistem özbaşına, təsadüfən və tamamilə xaotik şəkildə inkişaf edə bilərmi? Körpənin xüsusi quruluşlu qanı, bu qanı ürəyə və ürəkdən lazımi bölgələrə daşıyan damarlar, bu damarları plasenta ilə birləşdirən strukturlar, bir sözlə, hər bir detal zamanla təsadüfən özlərini qurmuş ola bilərmi?

Əlbəttə yox. Ürəyin, qanın və damarların formalaşmasında hər hansı bir pozulma embrionun inkişafının dayanmasına səbəb olardı. Ürək damarlar əmələ gəlməmişdən əvvəl qanı vurarsa, qan nəzarətsiz şəkildə yayılar və dövr edə bilməz. Yaxud ürək lazım olduğu anda döyünməyə başlamasa, qan bədənə çata bilməz. Bu o deməkdir ki, embrion inkişaf etmədən ana bətnində öləcək. Halbuki bu günə qədər yaşamış milyardlarla insanın hər birində bu tənzimləmələrdə heç bir pozulma olmamış, ürək ilk döyüntülərini tam olaraq olması lazım olduğu anda etmiş və yeni yaranan bədənə lazım olan miqdarda qan vurmuşdur.

Bütün bu proseslər davam edərkən, başqa bir çox mühüm formalaşmanın meydana gəlməsi lazımdır: mərkəzi sinir sistemi. Embrion disk adlanan quruluşun ən yuxarı təbəqəsində əmələ gələn paralel xətlər və qabarcıqlar mərkəzi sinir sistemini (beyin və onurğa beyni) əmələ gətirməyə başlayır. Ən yuxarı təbəqə bir boşluq əmələ gətirir, boşluğun küncləri birləşir və bir-birinə yapışır, beləliklə dar bir boru meydana gətirir. Borunun ön hissəsi qalınlaşır və genişlənir və beyin meydana gəlir. Onun arxa hissəsi isə onurğa beynini meydana gətirir.

Burada bir neçə cümlə ilə ümumiləşdirilən bu hadisələrin hamısı əslində o qədər mürəkkəb, mükəmməl, dəqiq və qeyri-adidir ki, insan təxəyyülünün sərhədlərini aşır. Sinir sisteminin formalaşmasının digər mərhələləri bu hadisələrin qeyri-adi xarakterini daha da gücləndirir.

5-ci həftədən etibarən çox sürətlə əmələ gələn onurğa beynində saniyədə 5000 sürətlə neyron adlanan xüsusi sinir hüceyrələri istehsal olunmağa başlayır. Beyin daha sonra bu bölgədə formalaşacaq.

Beyin hüceyrələrinin əksəriyyəti embrionun ilk 5 ayında əmələ gəlir və onların hamısı doğuşdan əvvəl beyində lazımi mövqelərini tuturlar. Böyük bir sürətlə əmələ gələn hüceyrələr bir müddət sonra mərkəzi sinir sisteminin qollarını meydana gətirmək üçün daha uzaqlara köç etməyə başlayırlar.

Ancaq bu mərhələdə hər bir neyron üçün sinir sistemində onun üçün ayrılmış dəqiq hədəf yerini tapması vacibdir. Buna görə də gənc neyronların öz yollarını tapmaq üçün mütləq bələdçiyə ehtiyacı var. Bu bələdçilər onurğa beyninin inkişaf sahəsi ilə beyin arasında bir növ kabel kimi uzanan xüsusi hüceyrələrdir. Neyronlar istehsal olunduqları yeri tərk edərək bu bələdçilərdən yapışaraq köç edirlər. Və onlar üçün ayrılmış yerləri anlayır, orada məskunlaşır və dərhal digər neyronlarla əlaqə qururlar. Bəs neyronlar əmələ gələn kimi belə bir səyahətə çıxacaqlarını haradan bilirlər? Bu səyahət zamanı hədəflərini tapmaq üçün bələdçidən istifadə etmələri lazım olduğuna və birbirləri ilə necə əməkdaşlıq edəcəklərinə necə qərar verirlər? Neyron dediyimiz varlıqlar son nəticədə atom və molekullardan ibarət adi gözlə görülməyəcək qədər kiçik hüceyrələrdir. Onların bu qədər şüurlu şəkildə məskunlaşması öz qərar və iradəsi ilə baş verəcək bir hadisə deyil. Bu prosesi idarə edən mərkəz beyin deyil. Çünki ana bətnində olan embrionun beyni hələ formalaşmayıb.

Bu hüceyrələr əmələ gələn kimi, sanki yalnız onlara aid proqramlaşdırmaya uyğun olaraq bilmədikləri yerə doğru hərəkət edirlər. Aydındır ki, beyin və sinir sisteminin formalaşması zamanı baş verən heç bir hadisə təsadüfən baş verə bilməz.

Neyronlar ilk yarandıqda, yetkin bir insanın quruluşundan fərqli bir quruluşa malik olur. Böyüyən bir insanın sinir sistemi ilə bağlı vəzifələri yerinə yetirmək üçün bədənin müəyyən bir sahəsinə köç edən neyronlar əvvəlcə havasız və oksigensiz bir mühitdə yaşaya bilən bir metabolizmə malikdirlər. Ancaq beyin bölgəsinə gəlib məskunlaşdıqda birdən-birə hava ilə yaşaya bilən, yəni oksigendən asılı maddələr mübadiləsinə sahib olurlar. Belə bir transformasiya hər dəfə bütün sinir hüceyrələri üçün mükəmməl şəkildə baş verməlidir. Əks halda sinir hüceyrələrinin yaşamasını qeyri-mümkün edəcək. Bu, şübhəsiz ki, möcüzəvi bir hadisədir.

Bu gün bilirik ki, insan beyin hüceyrələri bir müddət oksigensiz qalanda onlar ciddi təhlükə ilə üzləşirlər. Əslində menstruasiya bir az uzananda əvvəlcə iflic, sonra isə ölüm qaçılmaz olur. Ancaq ilk meydana gələn neyronlar tamamilə fərqli bir sistemdədir. Təkcə bu mərhələdə problem yaranarsa, yəni neyronların maddələr mübadiləsində tam ehtiyac olduğu anda dəyişiklik olmazsa, embrion insan ola bilməz. Təbii ki, bir hüceyrənin öz iradəsi və şüuru ilə gələcəkdə hansı vəzifəni yerinə yetirəcəyini təyin etməsi və bu vəzifəyə uyğun olaraq öz quruluşunu dəyişməsi mümkün deyil.

Bu vəziyyətdə qarşılaşdığımız həqiqət açıqdır: Bu xüsusiyyətlərə malik neyronları yaradan, onları lazımi anda lazımi formaya salan və gedəcəkləri yerə bir-bir yerləşmələrini təmin edən ilahi proqramlaşdırmanın möhtəşəm bir müəllifi vardır.

"...Sizi torpaqdan, sonra bir damla sudan yaradan, sonra da sizi sağlam bir ağıl sahibi edəni inkarmı edirsiniz? Lakin O, mənim Rəbbim olan Allahdır və mən heç kəsi Rəbbimə şərik qoşmuram". (Quran, Kəhf surəsi, 37-38)

Embrionun inkişafını araşdırdıranda çox dəqiq və ahəngdar bir inkişafın olduğunu görürük. Birinci ayın sonunda embrion inkişaf etməmiş gözlər, qulaqlar, burun, çənə və yanaqlar formalaşmağa başlayır.

Bu ahəngdar inkişaf zamanı bir tərəfdən böyümə, digər tərəfdən formalaşma və digər tərəfdən struktur dəyişiklikləri üçün çox vacibdir. Bu dəyişikliklərin bütün bədən hissələri üçün eyni şəkildə baş verməsi vacibdir. Çünki insan bədənindəki bütün orqanlar son dərəcə mürəkkəb strukturlara malikdir. Məsələn, təkcə gözə aid 40 fərqli hissə var. Gözlərin öz funksiyalarını yerinə yetirməsi üçün mütənasib böyümə olmalıdır, hissələr arasında əlaqə güclü olmalıdır və hamısı öz yerində olmalıdır. Əks halda göz öz funksiyalarını yerinə yetirə bilməyəcək. Eynilə, qolun meydana gəlməsi üçün sümük və əzələnin meydana gəlməsi eyni anda başlamalıdır.

Buradan da anlaşıldığı kimi, dölə aid olan bütün hüceyrələr bu ahəngdə hərəkət edir. Hər biri bədənin ümumi planından xəbərdardır. Hər biri bəzi siqnallar göndərir və digərlərindən gələn siqnallara reaksiya verir. Embrionun bütün hüceyrələri birlikdə hərəkət edir. DNT-lərindəki məlumatlardan sanki razılaşaraq ehtiyaclarına uyğun istifadə edərək birbirindən fərqli xüsusiyyətlər əldə edirlər.

Bəs hüceyrələr hara gedəcəklərini və nə yaradacaqlarını necə bilirlər? Həm də birlikdə işlədikləri hüceyrələrlə necə bu qədər uyğunlaşa bilirlər? Hüceyrələrdəki genetik məlumatların necə istifadə ediləcəyinə və hüceyrələrin necə fərqlənəcəyinə kim qərar verir?

Bədənimizdəki orqanlar nə əskik, nə də artıqdır. Orqanlarımızdakı çatışmazlıq bəzən ölümcül olur və ya ən azı əlilliyə səbəb olur. Artıqlıq isə bədənə istifadə olunmamış və lazımsız yüklər qoyur. Deməli, ilk növbədə insana lazım olan orqanların sayı müəyyən edilməlidir. Bəs bu rəqəm necə müəyyən edilir? Necə olur ki, bir qrup hüceyrə orqan yaratmağa başlayanda, başqa bir qrup hüceyrə eyni orqandan ikinci orqan yaratmır?

Burada vurğulanması lazım olan məqam bədəndəki bütün hüceyrələrin DNT molekulunda informasiya kodlarını kimin yerləşdirdiyidir. Daha da vacibi- bu informasiyanın harada, nə vaxt və necə istifadə olunacağına kim qərar verir? Sual yenə də ritorikdir və cavab məlumdur.

Əslində şüursuz və cansız atomlar olan hüceyrələr, qan damarları, toxumalar, hava, külək və ya hər hansı digər maddə belə bir qərar vermək gücünə malik deyil. Hüceyrələrdə şifrələnmiş bu möhtəşəm planı yaradan ilahi qüdrət bütün Yaradılışın sahibidir. Hüceyrələrə lazım olanı etmələri üçün ilham verən və bu planın qüsursuz işləməsini təmin edən güc yalnız Ona məxsusdur.

(Ardı olacaq)

***Elçin Bayramlı***

# Günəş şüaları dərimizə necə zərər vurur?



“Günəşin dərimizə mənfi təsirləri əsasən iki fərqli şəkildə özünü göstərir”. Bu sözləri SİA-ya açıqlamasında dermatoloq-həkim Bəxtiyar Paşayev deyib. Onun sözlərinə görə, bunlardan biri uzun müddətli və təkrarlanan günəş şüalarının təsiridir, digəri isə qısamüddətli, amma intensiv günəş altında qalma nəticəsində yaranan təsirlərdir. Uzunmüddətli təsir o deməkdir ki, illərlə, hər gün və ya müəyyən dövrlərdə günəşdən qorunmadan məruz qalmaq dəridə erkən yaşlanmaya səbəb ola bilər. Bu, dəridə ləkələrin yaranmasına, elastikliyin itirilməsinə və ən təhlükəlisi də dəri xərçəngi riskinin artmasına gətirib çıxarır. Belə davamlı təsir dərinin hüceyrələrində zədələnmələr yaradır, nəticədə dəri daha incə və həssas olur.**

Digər tərəfdən, qısamüddətli təsir isə xüsusilə isti günlərdə bir neçə saat boyunca günəşin altında qalmaqla bağlıdır. Bu zaman dəridə günəş yanıqları əmələ gəlir ki, bu da dəridə qızartı, şişkinlik və ağrı ilə özünü göstərir. Günəş yanıqları bəzən fotodermatozlar və ya fotoallergik reaksiyalar şəklində daha ciddi problemlərə səbəb ola bilər, xüsusilə həssas dəriyə malik insanlarda.

Hər kəs günəşdə uzun müddət qalanda bu yanıq riskini daşıyır və bu, mövsümə görə daha çox yay aylarında aktual olur. Günəşin bu mənfi təsirlərindən qorunmaq üçün günəşlənmək ümumiyyətlə məsləhət görülmür. Əgər mütləq günəşdə olmaq lazımdırsa, daha çox kölgəli yerlərdə, məsələn, çətirin altında qalmaq tövsiyə edilir. Günəşdən qoruyucu kremlərdən istifadə etmək də çox vacibdir. Xüsusilə SPF (Sun Protection Factor) göstəricisi olan kremlər dərini həm UVA, həm də UVB şüalarından qoruyur və günəş yanığı riskini əhəmiyyətli dərəcədə azaldır. Bundan əlavə, günəş altında qalma saatlarını da tənzimləmək lazımdır. Ən təhlükəsiz saatlar səhər 11:00-a qədər və günorta 16:00-dan sonra hesab olunur, çünki bu zaman günəşin şüaları daha zəifdir.

Nəticə olaraq, sağlam dəri və ümumi sağlamlıq üçün günəşə məruz qalma diqqətlə idarə edilməli, həm uzunmüddətli, həm də qısamüddətli zərərlərin qarşısı alınmalıdır. Günəşdən qorunmaq, doğru vaxtda və düzgün şəkildə günəşlə əlaqəni saxlamaq, həm dərinin sağlamlığını qoruyar, həm də xroniki xəstəliklərin riskini azaldar.

*Günel Rəşadqızı*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bu gündən Azərbaycanda qohum evlilikləri qadağan edilir...



Bu gündən Azərbaycanda nikahın bağlanmasına mane olan hallar artırılır. Belə ki, bu, Ailə Məcəlləsinə dəyişiklikdə əksini tapıb. İyulun 1-dən Azərbaycanda qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqlarının, bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızının, həmçinin bibi (xala) və qardaş (bacı) oğlunun nikaha daxil olması qadağan olunur.

## “Formula 1” Azərbaycan Qran-prisinin vaxtı dəyişdirilib



2026-cı ildə keçiriləcək ”Formula 1” üzrə Azərbaycan Qran-prisinin vaxtı dəyişdirilib. SİA xəbər verir ki, bu barədə ”Formula 1”in mətbuat xidməti məlumat yayıb. Bakıdakı mərhələ sentyabrın 24-26-sı aralığında təşkil olunacaq. Qurum daha əvvəl yarışın sentyabrın 25-27-si aralığında gerçəkləşəcəyini açıqlamışdı. Qeyd edək ki, bu il Azərbaycan Qran-prisi sentyabrın 19-da start götürəcək və 3 gün davam edəcək.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**